BAHƏDDİN SALMAN
CANLI QƏTLİ
(VƏHŞƏT)

Bahəddin Salman

CANLI QƏTLI
(Vəhşət)

Bakı - 2015

Redaktor: Rauf İlyasoğlu

Bahəddin Salman «Canlı qətli» (vəhşət)
Bakı, «MBM», 2015, 108 səh.

«Canlı qətli» povesti müəllifin oxucularla ilk görüşüdür. Gənc yazıçı bu əsərində hər zaman əyilməz və məğrur dayanan Boz Qurdun mərdanə xüsusiyyətləri ilə yanaşı, bəzi dayaz düşüncəli insanların təbiətə, canlılara qarşı vəhşi hərəkətlərini dərin incəliklərlə qələmə almışdır.

Ümid edirik ki, bu kitab təbiətsevərlər üçün maraqlı, düşündürücü və oxunaqlı olmaqla yanaşı müəllifə geniş oxucu rəğbəti qazandıracaqdır.

ISBN 978-9952-29-093-7

© B.Salman
Bakı, «MBM», 2015

ÖN SÖZ

Bahəddin Salmanın «Canlı qətli» (vəhşət) əsərini maraqla oxudum. Təbiət mənzərələri, boz qurdun sonsuz məhəbbəti, vəhşi insan obrazı olduqca peşəkar səviyyədə qələmə alınmışdır.

Pula həris insanların vəhşi heyvanlara, xüsusilə də nəsli kəsilməkdə olan boz qurda əl qaldırması, nəticədə erkək boz qurdun insandan qisas alması obrazlı şəkildə təsəvvür olunmuşdur.

Təbiəti sevmək, meşələri qorumaq, heyvanlarla, insanlarla, təbiətlə, bir sözlə Tanrının yaratdığı canlılarla şüurlu şəkildə davranmaq hər bir kəsin borcudur.

Sevimli Peyğəmbərimiz gözəl buyurmuşdur ki, hansı heyvanın, hansı quşun, hansı balığın əti yeyiləndir? Lakin bəzi ərazilərdə it ətinin, eləcə də bəzi tərpənən həşəratların yeyilməsi əlbətdə ki, vəhşilikdir.

Canavar – boz qurd – əyilməzdir, məğrurdur, vəfalı və sədaqətlidir. Bahəddin Salman yazdığı «Canlı qətli» əsərində boz qurdun əyilməzliyini, məğrurluğunu göstərməyə çalışmışdır.

Əgər boz qurdun erkəyi və ya dişisi ölərsə ya da öldürülərsə, sağ qalan boz qurd heç zaman özgə həmcinsi ilə yaşamır, yalquzaq ya qisasını alır, ya da təkliyə çəkilərək tək, sərgərdən yaşamağa üstünlük verir.

Bu kitab təbiətsevərlər üçün olduqca maraqlı və oxunaqlıdır. Mənə elə gəlir ki, bu əsər xarici dillərə tərcümə olunaraq geniş oxucu kütləsinə çatdırılsa, təbiətsevərlər tərəfindən rəğbətlə qarşılanacaq və mükafatlara da layiq görüləcəkdir.

Təkrarsız, bədii təsvirləri ilə seçilən Bahəddin Salman gənc olmağına baxmayaraq öz üzərində çalışan, öyrənməyə çox can atan istedadlı qələm sahibidir. Daima axtarışda olan, dünya ədəbiyyatı, tarixi, mədəniyyəti ilə maraqlanan Bahəddin Salmana bir-birindən maraqlı daha mükəmməl əsərlər ərsəyə gətirməsi naminə cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Rauf İlyasoğlu,
"Respublika" qəzetinin xüsusi müxbiri,
şair-publisist, «Qızıl qələm» media
mükafatı laureatı

Tünd boz rəngə qatışan gecəni ağuşuna almış tufan, canlı aləmi kar edəcək şəkildə Asiyanın orta güney hissəsindən, doğu batı səmtinə qədər uzanan dünyanın ən böyük və ən yüksək sıra dağlarını – Himalay dağlarını soyub sovurur. Ətraf gözü kor edəcək şəkildə qarla örtülüb. Everest təpəsini öz sərhədləri ilə əhatələmiş Nepalın cənubuna doğru uzanan meşəliklə əhatə olunmuş Terrai bölgəsindəki yolun tən ortasında, canavar ulartısı ətrafı gecənin tufanı ilə bərabər qorxuya qərq edir. Çox qəribədir görəsən niyə?! Bu landşaftda bu təbiətdə belə səslərin eşidilməsi yalnız insanlar üçün qorxulu ola bilər. Tufan səsi ilə bərabər canavar ulartısı əslində Himalay silsiləsi və Nepal təbiəti üçün doğma səs kimi eşidilir. Birdə ki, gecənin qaranlığında, soyuğunda dayanmadan ulayan canavarın çox böyük səbəbi olmalıdı axı.

Ulayan erkək canavar imiş. 62-70 gündür boğaz olan dişisi nəhayət onun üçün 10 bala dünyaya gətirib. Mütləqdi ki, o da bu sevincli hadisənin şərəfinə öyünərək fəxarət hissi ilə dayanmadan ulayır.

Əsasən canavarlar qışın axırlarına yaxın cütləşir, yazın girəcəyində balalayırlar. Elə bu Himalaydakı çılgın təbiət havası da qış fəslinin son ərəfələrinin havasıdı. Yəni bir söznən uyğunsuz hava şəraitini Himalay təbiətinin dəcəlliyi kimi adlandırsaq yanılmamış olarıq.

Gecənin zülmətində ulayan canavarın uzunluğu deyəsən 105-160 sm-ə çatır. Quyruğu isə 35-49 sm olar. Beli bir qədər enişli, əzaları nisbətən hündür, həm də güclü görsənir. Xırda gözləri bir-birindən aralı və onların arasından bir qədər aşağıda küt qara rəngdə olan burnu yerləşir. Qulaqları da uçbucaq formasındadır, rəngi də bozdur. Bəs yaxşı sevincli ata canavarla, onun ailəsi hansı canavar növüdürlər? Artıq rəngi bəllidir. Adı da rəngindən doğur. "Boz qurd".

Boz qurd deyəsən balaları dünyaya gəlməmişdən öncə də, dişisinin qulluğunda yamanca dayanıb. Ona görə ki, dişisi təxminən yerin on metr dərinliyinə qədər qazılan lağımın (yuvanın) içərisində ailəsinin qadını və balalarının anası kimi yeni doğulmuş körpələrinin əhatəsində başını çölə çıxartmadan rahatlıqla

uzanıb. Niyə də uzanmasın ki? Lağımın ağzında ona, balalarına əksilməz sədaqətiylə sadiq olan erkəyi, Boz qurdu oturub!.

Ümumiyyətlə (erkək Boz Qurd) canavarlarda bəzi kişilərə xas olmayan çox dərin mənaya mənsub vəfalılıq, sadiqlik var. Onlar ömürləri boyu bir dişi cinsi ilə münasibətdə olub son nəfəslərinə qədər həmin dişiyə sadiq qalaraq yaşayırlar. Azadlıqda bu gözəl keyfiyyətlərinin ən birincisi kimi təcəssüm olunur. Boz qurdlar məğrurluqları ilə bərabər heç nəyə baş əyməyən canlıdırlar. Onlar heç vaxt ədalət pəncərələrindən kənara çıxmazlar. İnsanlarla dost olurlar. Təbii ki, bu xüsusiyyət yalnız canavarların "Boz qurd" növüylə bağlıdır. Bəzi heyvanlar kimi məsələn: it, yaxud da başqa heyvanlar kimi insana boyun əyməz, yaltaqlanmazlar. Onlar qapıya bağlanmış it kimi havayı yemək üçün sahibinə yaltaqlanmaq əvəzinə, simvolizə olunmuş varlıqlar kimi heç kimə tabe olmadan öz həyat tərzlərini özləri formalaşdırmağı daha üstün bilərlər. Hər bir canlı kimi heyvanat aləminin hər bir fərdi kimi, hətta insan kimi tələyə salına bilər, öldürülə bilər, yalnız əyil-

məzlər, diz çökməzlər. Hardansa bağlanarlar, ancaq nə olsun? – bir yol tapıb o bağlılıqdan qaçarlar. Bax bizim baş qəhrəman Boz qurdumuz da belələrindəndir.

Səhər yavaş-yavaş gecənin növbəsini gecənin özündən təhvil alaraq aydın səmalara, Himalay ətrafını bəyaz rəngə boyamağa başlayır. Boz qurd da yerindən tərpənməlidir. Elə də olur.

Dörd ayağı üstündə qalxıb birbaşa ailəsinin olduğu lağımın içərisinə daxil olur. Dişisini və balalarını yoxladıqdan sonra lağımın içərisindən bayıra çıxıb yüksək səslə ulayır. Məncə xöşbəxtliklə dolu gözəl bir günə sahib olduğu üçün Tanrıya şükr edir. Niyə də etməsin? Gözəl canlıdı. Ən əsası da odur ki kefi sazdır.

Ucadan uladıqdan sonra dişisinə, balalarına qida gətirmək üçün ailəsinin olduğu lağımın sağ tərəfiylə Nepal boyu sahəyə doğru irəliləməyə başlayır. Dünən gecə tufan olmasına baxmayaraq hava sakit və günəşlidir. Lakin burada – Himalay silsilə dağlarının əhatəsində, yazın başlanğıcı olsa da, ətrafda hava yenə də soyuq olur.

Qar Günəşin təsirindən islanmağa başlayıb. Yerdəki qarın əriməsini Boz qurd da öz addım-

ları zamanı hiss edir. Qətiyyətli xırda gözləri ilə, pəncələri altında islanmış olan qarın əridiyini çoxdan sezməyə başlayıb. Bir yandan da iti gözləri hər an çıxa biləcək ova zilləndiyini aşkarca büruzə verir. Çox da gəzib axtarmağa ehtiyac qalmır. Budur Bozdan təxminən on metr irəlidə Tülkü Sincabı ovlayub, keçirdib dişlərinin arasına. Sən bir "Tanrı"nın işinə bax, ov üstündə ov olacaq. Tülkü bu saniyələr içərisində çox şanssız vəziyyətdədir. Lakin zavvalı heyvanın bundan xəbəri yoxdur. Aclığa susamış Tülkü, nəfsinin ucbatından Bozu görmür. Necə də bəh-bəhnən Sincabın için içalatın dartıb çıxardır. Sincabın tünd, qırmızı qanı tülkünün dişləri arasından çənəsinə qədər göz yaşı kimi süzülür. Boz hadisəni sakit-sakit izləsə də, Tülküyə hələ də yaxın durmaq fikrində deyil. Boz izləyir. Hələ də Tülküyə yaxınlaşmır. Mütləqdi ki, bu saniyələrdə Tülkü onun ədalət tərəzisində ölçüldüyündən o Tülküyə yeməyi üzərində yaxınlaşmağı özünə yaraşdırmır. Yəqin düşünür ki, özünə yaraşan tərzdə yaxaladığı şikarını yemək Tülkünün ən təbii haqqıdır. Bir də ki dedik axı Boz qurd mərddir. O Tülkünün

şikarına başı qatışdığından istifadə edib, yekdilliklə desək tülkülük edib onu yaxalamağı qəti olaraq özünə yaraşdırmaz.

Sincabın bütün içalatı Tülkünün dişləri arasında çeynənib mədəsinə ötürüldü. İndi qalır bədənin digər nahiyələrin yeyib həzm etmək. İlk öncə sincabın quyrugu qopardılıb onun dişləri arasında piltə-piltə edildi. Quyruq da yeyildi. Uzun quyruqdan heç nə qalmadı. İndi də bədən tikə-tikə yeyilir. Tülkü Sincabın dırnaqlarına kimi yeyir. Yaman acıb a, a Tülkü amanaman. Boz qurd Tülkünü bir saata yaxındır ki, izləyir. Nəhayət Tülkü köpdü.

Boz qurd başını belindən bir az aşağı əyib qəzəbli və ürküdücü vəziyyətdə baxmağa başlayır. Bununla da kifayətlənməyib ondan xəbərsiz olan tülküyə ucadan ulamaqla həyacan siqnalın ötürür. Burnunun altından üst dodağı yuxarı qalxır, iti dişləri aşıq-aşkar şəkildə boy göstərməyə başlayır. Tülkü canavarı eşidir, üstəlik görür də. Boz qurdun gözlərindən çıxan vahimə, dodaqları arasından eşidilən mırıltı ilə toqquşub Tülkünün qorxudan titriyən ürəyinə sanki bıçaq kimi saplanır. Onun üçün ən yaxşısı

qaçmaqdır. Lakin Tülkü qaçmır. Yerində o yanbu yana tərpənməklə möhkəmcə qorxduğunu büruzə verir. Düzün danışaq, belə baxışın vahiməsindən qopub qaçmaqmı olar..? Boz qurd tülküyə tərəf şığımağa başladı. Tülkü elə bil baxışları ilə yalvarır. Bayaqdan sincabı bəhbəhnən yeyən tülkünün vəhşiliyi necə də aciz hal alıb.

Yerdə sürütlənərkən öz bədənindən izlər yazan tülkü Boz qurdun dişləri arasından cəsəd halında lağıma doğru yol ölçür. Sinacbın qanının izləri hələdə tülkünün çənəsindən və burnunun alt hissələrindən silinməyib.

Boz yaman səbirsiz görsənir. Səbrsizliyinin arasında desək ki xırdaca fərəh hissi utancaqlıqla özünü gizlədib, inanın ki, yanılmarıq. Sayı çoxalmış ailə üzvlərinə ilk dəfə yemək gətirməkdimi onu belə fərəhləndirən? Əgər belədirsə, qoy fərəhlənsin. Çünki artıq onun məsuliyyəti birə beş artıb.

Tülkünün cəsədini dişisi və balaları qalan lağımın qarşısına buraxıb, yuvaya daxil olur. Heç bunun üzərindən on saniyə keçmir ki, Boz, arxasınca dişisi yuvadan çıxır. Dişi Boz Tülkü-

nün cəsədin qoxlamağa başlayır. Boz qurd isə yenə də dişisinin erkəyi kimi, vəzifəsini düzgün icra etməyə davam edir. Dişisi erkəyinin gətirdiyi yemi qoxlamağındadı, Bozsa ətrafı gözətdəməyində. Bizim Boz da azca qısqanclıqla ətrafa göz gəzdirməklə dişisini həddindən artıq diqqətlə qoruyur, onun ətrafında ayıq dayanır. Nə isə, dişi Boz qurd tülkünün cəsədini yetərincə qoxladıqdan sonra, iştahla yeməyə girişdi. Özü də ilk dişdəyin Tülkünün qabırğalarından götürdü. Dişisinin arxasınca isə Boz qurd ovladığı şikarın cəmdəyini parçalamağa başladı. Maraqlıdı, bəs onda balalar nə yeyəcəklər?

Yoxsa onlar analarının südündən içəcəklər? Boz qurd tülkünün isti ətindən doyduğu qədər yeyib qıraga çəkilir. Dişisi isə hələ də erkəyinin gətirdiyi ovun dadına baxmaqdan doymaq bilmir ki, bilmir. Özü də ayaqlarını qatlayıb qarnının altına qoyub, oturaqlı vəziyyətdə cəsədi çox rahatçılıqla parçalayır. Düz də edir. Nədə olmasa çox böyük enerji itirib. O, erkəyi üçün dünyaya on boz qurd gətirib. Küçükləri yemləməkdən ötrü ona bol süd ehtiyatı gərəkdir. Bir söznən yeməkdən çoxluca yemək, belə rahat-

çılıqnan oturmaq onun ən təbii haqqıdır. Çox da uzun sürmür. Yemək sona çatdı. Yemək bitər bitməz iki sevgili qoxlaşmağa başlayırlar. Burunlarını bir-birilərinə yaxınlaşdırıb, sanki eyni nəfəsi almağa çalışırlar. İkisinin də bir-birinə qarşı böyük məhəbbət hissi duyduğu məlum məsələdir.

Yenidən uzaqlaşırlar. Dişi, balalarının yanına gedir, Boz isə ailəsinin keşiyində durmaq üçün, lağımın qarşısında növbə tutmağa başlayır.

Göy üzünün anası adlanan, Nepal və Tibet sərhəddində, həmçinin Çində yer alan Everest dağının burnu, gecənin qaranlığında sanki Aynan qoxlaşır. Bu gözəllikdən zövq alan Boz da öz lağımının qarşısında dayanıb ucadan ulamaqla məşquldur. Təbiətin canlı aləmlə bu cür gözəl şəkildə təmas qurması, ulu Tanrının yaratmış olduğu kainat mənzərəsinin əsrarəngizliyini bir daha təsdiq edir. Ancaq belə gözəl təbiət mənzərəsində hansısa ayaq səslərinin Bozun əhvalını qaçırtması necə görsənə bilər?

O başını boynundan aşağı əyib, bir an içərisində diqqətə bürünmüş xırda gözləriylə nişan aldığı ətrafı sezməyə başlayır. Ayaq səsləri

kəsilmir ki, kəsilmir. Boz mırıldamağa başlayır. Uzun çəkmir ki, yeddi canavardan ibarət dəstə onunla qarşı-qarşıya dayanırlar. Bəlkə də onlar Bozun məkanına ona görə gəliblər ki, Bozla qrup halında birləşib, yaşasınlar. Ancaq belə halın baş verməsi mümkünsüzdür. Boz qurd dişisindən savayı ətrafdakı canlı aləmin başqa nümayəndərinə güvənmir. Bu xarakter də onun özünə məxsus özəlliklərindən biridir. Tək kəlməynən desək arzu olunmaz qonaqların gəlişlərinin səbəbi hər nədə olsa da Bozun məkanını tərk etməlidirlər.

Boz öz duruşunu pozmayıb. Həmişəki kimi başı bədənindən aşağı, gözləri qəzəbli halda çox şeyləri baxışıyla anlatacaq tərzdə canavar dəstəsinə qandallanıb. Aypara formasında düzülən canavarlardan biri formanı pozaraq ehtiyatkar baxışlarla Boza tərəf addımlamağa başlayır. Lağım ətrafındakı gözlərin hamısı Boza zillənib. Canavar atdığı addımların üzərinə daha bir addım atıb dayanır. Bədən tərpənmir. Yalnız gözlər öz sözünü deyir. Boz da sakit görsənmir. Qəzəb onun gözlərindən bir başa gecəyə səpələnir. Bunu aypara şəkli almış yerdə qalan altı

canavar da hiss etməyə başlayıb. Canavarın canavardan istəyi nə ola bilərki? Sizə də elə gəlmirmi ki, onların niyyəti birləşməkdir? Bəlkə də biz yanılırıq? Xeyr yanılmırıq. Çünki Boza yaxınlaşan canavar onu qoxlamağa başlayır. Sanki salam verməyə çalışır.

Üst dodağın küt qara buruna dirənməsi, nəticədə kəskin dişlərin qıcanması və vahiməli mırıltı səsi elə bil Boza yaxın duran canavara qarşı Bozun; – addımlarından xoşum gəlmir, irəli atdığın addımları geri say və sürünlə bərabər itil buradan – fikrinin səssiz təzahürüydü. Lakin yox, Bozun böyük qəzəblə onların yaxınlığına qarşı göstərmiş olduğu münasibəti canavarlara təkəbbürlülükdən başqa heç nə ifadə etmədi.

Canavarlardan daha biri irəli addımın atdı. Deyəsən onlar anlamayacaqlar. Boz lağımın içərisində balaları ilə bərabər olan dişisinə təhlükənin olduğunu bildirmək üçün ilk öncə uzun şəkildə ulayıb, arxasınca da kəsik-kəsik hürməyə başlayır. Ona görə artıq məsələnin axırı yalnızca qanla bitməlidi. Başqa seçim yolu isə görsənmir. Bu canavar sürüsü də lap ağını

çıxartdı axı. Heç zornan da gözəllikmi olar? Onların etdikləri hərəkətə sırtıqlıqdan savayı ad verməkdə olmur!.

Boz mırıldanaraq ilk öncə irəli çıxmış canavarın üzərinə şığıyır. Pəncəsiylə ölçüb biçməmiş atdığı ilk zərbəsi həmin canavarın burnunu yerindən qoparıb, yerdə qalan parçasından sallaq etdi desək necə olar? Belə lap əla olar. Elə belə də oldu. İki bölünüb sallaq olmuş burnunun ağrısı bayaqdan əcəl girrəmiş canavarı indi necə zingildədirdisə, səsə az qala Bozun yatmış balaları oyansın. Canavar sürüsü öz nümayəndələrinə qarşı endirilən zərbənin şahidinə çevrildikdən həmən sonra bir saniyə belə ləngimədən Bozun üzərinə hücuma keçib onu təkləməyə başladılar. Vəhşi mırıltı səsləri düz on dörd dəqiqədir ki, gecənin səbrli sakitçiliyini əməli başlıca pozmağa davam edir. Doğrudur, hər iki tərəfdə bir-birilərinə qarşı qorxu hiss etmirdilər. Lakin Bozun təkcə bu sürüyə qarşı cəsarətlə, hünərlə vuruşması daha heyrətamiz görüntü əks etdirirdi. Ancaq Boz da savaş meydanında tək buraxıla bilməzdi. Bayaq onun ucadan uluyub, kəsik-kəsik hürməsiylə təhlükənin

olduğunu çatdırdığı dişisi erkəyinin ötürmüş olduğu həyəcan siqnalını yerində qəbul etsə də, balalarıyla bərabər içərisində olduğu lağımdan bayıra çıxmamışdı. Belə vəziyyətdə gərəkdi ki, o körpələrini qorusun. Nəhayət uzun çəkən boğuşma səsləri onu çox sevdiyi erkəyini də qorumağa vadar edir. Budur lağımın içərisindən bayıra çıxan dişi boz erkəyinin yeddi canavarla tək başına mübarizə apardığını görüb özünü onun köməyinə yetirir. İnanılmaz olsa da, savaşda erkəyinə kömək üçün boy göstərən dişisinə xırda xəsarətin yetiriməsinə Boz heç cürə imkan vermir. Bir neçə dəqiqə əvvəl öz prinsipinə görə savaşan Boz indi bu var gəl içərisində yalnız və yalnız dişisini qoruyur.

Təxminən iyirmi üç dəqiqə vaxt ötüb. Canavar dəstəsi Bozun məkanına yaxşı niyyətlərlə gəlsələr də, əli boş geriyə qayıtmalı olurlar. Uzun çəkən mübarizə ərzində Bozun bədənində yüngül xəsarətlər iz salmışdı.

Dişi Boz erkəyinə yaxınlaşıb onun yüngül yaralarının üzərindəki qanı diliylə yalamağa, ardınca da erkəyinin vücudunu qoxlamağa başlayır. Boz nə qədər yorğun düşsə də, dişisinin

ona nümayiş etdirdiyi vəfalı məhəbbətdən zövq aldığını, gecənin qaranlığında parıldayan gözləriylə əks etdirməyi özü üçün eyib saymır. Bu saniyələrdə çox insanların heyvandı, vəhşi canavardı, – deyib üzərindən rahatlıqla keçdiyi bu canlıların bədənində ruh, ruhunda məhəbbət, məhəbbətində də iri həcmli gözlə görünə biləcək dərəcədə vəfalılıq əks olunur. Gəlin inanaq ki, onlar da sevirlər. Ən azı biz insanların sevdiyi, ən çoxu isə biz insanların sevmədiyi qədər saf, sadiq məhəbbətlə sevirlər! Belə sevgini mütləqdir ki, ulu Tanrı da izləyir və inanır.

II

İki həftə keçib. Bu həftə ərzində heç bir yöndə yaşam şəraitinin eyniliyi pozulmamışdı. Yəni balalarını dünyaya göz açan gündən bəri dişi Boz lağımın içərisində öz südü ilə necə qidalandırırdısa, yenə də həmin nəvazişkarlığını davam etdirirdi. Boza qaldıqda isə, o da öz sevgilisinin, həyat yoldaşının, dişisinin zəifləməməsindən ötəri hər gün ova gedir, gözəl ovlar edir, şikarını ələ keçirməkdə, elə də çətinliklərlə

qarşılaşmırdı. Öz ağzıyla qoymuş kimi gedib şikarlarının ruhlarını bədənlərindən çıxardıb, ətə dönmüş yemini dişləriylə sürütləyərək dişisinin qarşısına gətirirdi. Yalnız həyat nə dişi Boz, nə də onun balalarından ötrü bu cür davam edə bilməz. Balaların süddən kəsilmə vaxtları gəlmişdi, hələ bir neçə gün də keçmişdi. Bu dəyişkənliklə bağlı Boz heç nə düşünməyəcəkmi? Yaxşı, dişi Boz niyə hərəkət etmir? Bəlkə də belə asan həyat tərzi onun üçün tərk edilməz gəlir.

Axşamdır. Sərin yay mehi ətrafı bol nəfəsiylə üfürməyə başlayıb. Yay fəsli qışı təbiətdən oğurlayıb tədricən gözdən uzaq yerlərdə gizlətməyi bacarmışdı. Boz tülkü ovladığı gün istisna olmaqla demək olar ki, iki həftə ərzində gündə iki dəfə ov edirdi. Bozun gündə iki dəfə ov etməsi ətrafdakı şikarlarına həyacan siqnalı ötürməsi demək idi ki, bundan özü də sonradan yaxşıca xəbərdar olur. Çünki iki həftədən sonra ov etmək istəsə də qarşısına ov çıxmırdı ki, çıxmırdı. Bəs nə etməlidi? Bəlkə də yeni ov məkanına gedən yolu, fərqli trayektoriya üzərindən cızmalı olacaq. Əgər belə olsa Pakistan,

Hindistan, Çin, Nepal və Butandan keçən 2400 km uzunluğundakı Himalayın harasından başlayacagı çox maraqlı görsənirdi. Təbii ki bu qədər böyük ərazini ov üçün dolaşması mümkün deyil! Özü də ailəsini tək qoyaraq. Yox belə bir şey doğrudan da mümkünsüz görsənir! Ən yaxşısı onun belə əlverişsiz vəziyyətdən necə çıxacağını səbr edərək gözləyib görməkdir.

III

Himalay çox qəribə və əzəmətli mənzərəyə sahib yerdi. Böyük keçmişə, tarixi quruluşa malik dağ silsiləsidir. Himalaylar Paleozit dönəmi boyunca, Avrasiya qitəsindən qədim Tetis okeanıyla ayrılan Hindistanın alt qitəsi, Qondvana qitəsinin bir parçasıydı. Bir müddət vaxt sonra erkən karbonifer dönəmində, Qondvana üzərində qitəsəl formalaşma başladı, bununla da erkən Permiyan dönəmində yeni Tetis okeanın yaratdı. Beləliklə bu günün İran, Əfqanıstan, Tibet bölgələrinin yarı qismini formalaşdıran qitə parçaları Qondvanadan ayrılıb şimala doğru sürgün edildi. Həmin vaxt ərzində

Qondvanada bir sıra materiklərin dreyfi, yəni parçalanması başlandı. Qondvananın parçalanması nəticəsində meydana gələn yeni hissələrdən biri olan Hindistan şimala doğru uzun məsafə qət etdikdən sonra Avrasiya materiki ilə toqquşdu. Bu zaman çərçivəsi müddətində iki materik tipli yer qalığının toqquşmasıyla, Himalay dağları yaranaraq yüksəldi. Belə tarixi formalaşmadan sonra Pakistan, Hindistan, Çin, Nepal və Butandan keçən 2400 km uzunluğundakı Himalay dağlarının buzlaqları Asiyanın ən böyük çayını qidalandırmağa başladı. Elə bunun nəticəsidir ki, 1,3 milyard insan, haqqında danışmış olduğumuz su yollarından bu gün də asılı yaşayır. Həmin su yollarından asılı yaşıyan insanlardan biri də "Binq" dir.

IV

Binq hər dəfəsində qanlı əllərini yumaq üçün dükanının qapısı ağzındakı krantdan axan sudan istifadə edirdi. Binq Çinlidir. Əlli bir yaşı var. Gəlin öyrənək görək onun əlləri niyə hər gün qanlı olurdu.

Binq Çinin Yulin şəhərində yaşayır. Orta boya, kobud əllərə, xırda qara gözlərə, cır səsə, seyrək şabalıdı rəngdə saçlara, tük çıxmaz üzə, dovşan dişlərə sahib bu insan, özünə məxsus olan böyük qəssab dükanında it, pişik, qoyun, dovşan, donuz, inək, cürbəcür növdə balıq və quş kimi heyvanların ətini satmaqla, yaşadığı "Yulin" kəndinin ən şöhrətli qəssablarından biridir. Şhao adlı qız övladı var.Buna sadəcə var desək yetərli olar. Həyat yoldaşıyla bağlı söhbətə isə heç də səthi yanaşmaq olmur.

Binqin çiləkeş arvadının adı Mulandır.Biz hekayəmiz boyu ondan yalnız bircə dəfə söhbət açacağıq. Mulan Binqi tərk edib. Qanuni yolnan desək Binqi boşayıb. Yox, bu boşanmaya səbəb elə düşünməyin ki, ailə məişət münaqişələri, ya da böyük maddi fəsadlar səbəb olub. Əlbətdə ki, ailə daxilində Binqin dözülməz, mundarlıqlarla bəzənmiş zülümləri də yetərincəydi, lakin boşanmaya əsas səbəb, yeganə sübut var idi ki, bu hər şeyə yetə biləcək qədər özüylə bərabər dözülməzlik gətirirdi. Binqin arvadıyla arasına dözülməzlik və narazılıq gətirən səbəb onun çöl heyvanlarını, əsasən də iti, pişiyi, yenicə doğul-

muş it balalarını öldürüb, ətlərini özünə məxsus olan qəssab dükanında sataraq pul qazanmasıydı. Mulan Binqlə məcburiyyətdən ailə həyatı qurmuşdu. O dilənçi ailəsində doğulduğundan həyatı uşaqlığından Binqlə tanışlığına qədər dilənçiliklə keçmişdi.

Mulan ailəsinin tək övladıydı. Atasını görməmişdi. Atası, o doğulmamışdan iki ay öncə bir üzü kasıbçılıqla, bir üzü də varlılıqla bəzənmiş dünyanın, kasıb üzüylə hər gün üz-üzə gələrək onunla aclıq qoxan nəfəs ilə öpüşməsindən bezib sonunda evin tavanından özünü asmışdı. Bu səbəbdən Mulan dünyaya gələndə onu qarşılıyan tək qalmış anası olmuşdu. Onu qəmlə dolu dünyada qarşılayan kəsin vəfatından sonra Mulan da tək qalır.

Göz açdığı dünyada ailəsinin ona bəxş etdiyi, onun da mənimsədiyi yeganə bacarıq dilənçiliyi olmuşdu.Uşaqlığından belə işlə məşqul olması, onun sosial həyatla bir başa iltibata keçməsi qarşısında, hündürlüyü aşılmaz olan böyük sədd hörmüşdü. Bir söznən başqa işlərə doğru yön almağı, daxili aləmində onun üçün psixoloji basqıntıdan basqa bir şey ifadə etmirdi. Lakin

acından ölməməkdən ötrü, bir qarın yemək üçün dilənməyi davam etdirməyə məcbur olurdu.

Dilənməsinə və həyatda yalnız əziyyətlə qarşılaşmasına baxmayaraq çox gözəl qız idi. Yaşadığı qəsəbədə, dilənçilik etdiyi yerlərdə çox kişilər ona baxıb gözəlliyi önündə ağızlarının suyunu axıdar, onunla bir saatlıq ləzzətlə əylənərək həyat yaşamaqlarının qarşılığında dilənçiliklə əldə etdiyi puldan əlli qat artıq pul verə biləcəklərini vəd edirdilər. Lakin Mulan yaşam tərzinə zidd olan belə əxlaqsız təkliflərə nifrətlə baxıb rədd cavabı verirdi.

Mulanın gözəlliyi qarşısında mumtək əriməyə hazır olan kişilərdən biri də Binq idi. Onun da xırda qıyqacı gözləri Mulanı qaçırmamışdı. Ancaq Binq kələk işlədərək həmin kişilərdən fərqli davrandı. Kələk, tam anlamda desək, Binqin doğulduğu gündən etibarən, həyatının bünövrəsinə tökülən patogen viruslara bənzər pislikdi. O, öz kələyi ilə kimsəsiz, fağır, əlacsız, savadsız Mulana evlənmə təklifini edir. Təbii ki, Binqə heç it də tamah salmazdı, amma neyniyək ki, siz demə Binq it əti satmaqla itlərə qarşı tamahını saxlaya bilməyib, bu deyimin

yanına başqa cür deyim də artırıb: “it mundara tamah salmasa, mundar itə tamah salar”. Nə isə!! Mulan əlacsızlıqdan Binqin evlənmə təklifini qəbul edir. O da elə həmin gündən etibarən gecələr yataqda Mulanın gözəlliyindən həzz alır, gündüzlər isə onun bişirdiyi yeməklərdən ləzzət alırdı. Tək kəlməynən, sarsaq Binq öz həyatını qaydasına salmışdı.

Mulan gün keçdikcə dilənçilik həyatının, bu cür insanla sürdüyü həyatından qat-qat üstün olduğunun fərqinə varırdı. Lakin artıq gec idi. Çünkü bir ilin tamamında Mulan Binq üçün qız övladı doğmuşdu. O bundan sonrakı həyatında nə balasından ayrı yaşaya, nə də balasını özüylə bərabər səfalət dolu həyata sürgün edə bilərdi. Binq üçünsə övladının varlığı Mulanın düşündüyü qədər vacib deyildi. Qızlarının adını belə Mulan qoymuşdu. O nə arvadına, nə də qızına qayğı göstərirdi. Onu da qınamaq olmur axı olmayan şeyi necə göstərə bilərdi?! İşi-gücü yalnız və yalnız pul qazanmaq, evə gəldikdə yemək yemək, yeməyin dadı xoşuna gəlməyəndə Mulanı döymək, ardınca bol-bol içki içmək, bunlar azmış kimi gecə içki qoxan nəfəsiylə

ona yataqda sahib olmaq idi. Bəzən o qədər içki içirdi ki, heç kişiliyini də işə sala bilmirdi. Nəhayət, bu vəziyyətə sanki Mulan günahkarmış kimi, acımasız şəkildə qadını çırpır, çırpdıqdan sonra istədiyi həzzə yenidən nail olmaqdan ötrü onunla sekslə məşqul olmasını tələb edirdi. Yazıq qadın düşdüyü bataqlıqda tikanlı kollardan tutaraq nəfəs almağa çalışan əlacsız bəndəyə çevrilmişdi. Bütün bu zülmlərə dözməsinə yeganə səbəb isə övladıydı. Beləcə günlər öz bədbinliyi ilə davamiyyətin qoruyub saxlayırdı. Binq evə gəlmədən Mulan yatmırdı. Düşünməyək ki, Binqə qarşı qəlbində yüngülcə istəyinin olduğundan bunu edirdi, əksinə ona dərin nifrət bəsləyir, ondan iyrənirdi. Sadəcə olaraq həyat yoldaşı kimi öz məsuliyyətini dərk etdiyindən onu evə dönəcəyi ana qədər gözləməyi özünə borc bilirdi. Borc bildiyi şeylər, yemək vermək, ya da Binqin digər istəklərini icra etməkdən ibarət idi. Ancaq həmin gecə Mulan oturduğu kreslonun üzərindəcə yuxuya gedərək borc bildiyi məsuliyyətlərdən özü də hiss etmədən imtina etmiş oldu. Saat beşə işləyirdi. Zülmət gecənin səssiz saatında hələ ki Binqdən səs soraq

yoxuydu. Bu səssizliyin üzərindən yarım saat vaxt ötmüşdü ki, bir anda uşaq bağırtısına bənzər səs evin otaqlarını bürüməyə başladı. Səsin get-gedə zilləşməsi Mulanı yuxuya getmiş olduğu kreslonun üzərindən dik atılaraq oyanmağa sövq etdi. Yuxudan oyanar-oyanmaz qulağına gələn səsin yan otaqda yatmış olan qızının səsi olduğunu düşünərək həyacanla həmin otağa yollandı. Qapını açdıqda isə Shaonun mışıl-mışıl yatdığını gördü. Həyəcandan döyünən qəlbi yenicə sakitləşməyə çalışır ki, bayaqki səs yenidən evin otaqlarını bürüməyə başlayır. Mulan, qorxu sarımış bədəni titrəyə-titrəyə evin çöl qapısına yaxınlaşıb qapını azca aralı buraxaraq həmin səsin haradan gəldiyini müəyyənləşdirmək məqsədi ilə qulaqlarını diqqətlə sakit gecəyə zilləyir. Qulaqlarının eşitmə qabiliyyəti onu aldatmır. Mulan əmin olur ki, səs evin zirzəmisindən gəlir. Vaxt itirmədən asta addımlarla zirzəminin açıq buraxılmış qapısı agzına yaxınlaşır. Zirzəmidəki Binq idi. Qapı ağzından gördüyü mənzərə onu dəhşətə gətirdi. Zirzəminin yeri qanla örtülmüşdü. Öldürülərək dərisi soyulmuş pişiklərin qanı,

həmin yeri qırmızıya boyamışdı. Sarsaq Binq bayaqdan üç ədəd pişiyin əl-qolunu bağlayaraq öldürməyə, birinin isə dərisini soymağa müvəffəq olmuşdu. Zirzəminin bir tərəfi öldürülmüş pişiklərin, bir tərəfi də dərisi soyulmuş pişiyin içalatıyla mundarlanmışdı. Düzdür Mulan yaşadığı şəhərdə çöl heyvanlarının cansız bədənlərinin satılmasına şahid olmuşdu, lakin canlı heyvan bədənin belə təfərrüatıyla cansızlaşdırılmasına şahid olmamışdı. O gündən etibarən Mulan dəhşət içərisində qovrulurdu. Sonralar o Binqə onun törətmiş olduğu işdən xəbərdar olduğunu bildirmiş, bu işlə məşqul olmamasıyla bağlı min nəsihət etmiş olsa da, qarşılığında min ah eşitmişdi. Şahidi olduğu canlı qətlinin acımasızlığı nəticəsində, daxili aləmində yaranmış ecazkar rifahsızlıq, Mulanı bir türlü tərk etmirdi. Binqə qalanda isə iyrəncliyini hələ də davam etdirirdi. İçində qurdalanmış olduğu girdabla dolu quyu get-gedə dərinləşərək onun daxili aləminin ən iyrənc təzahürünə, bu təzahür isə onun fəxrinə, həmçinin də pul qazandığı yolun addımlarına çevrilirdi.

Ötüb keçən köhnə günlərin gecə yarılarından

birində Binq evə qayıdarkən, içərisi biri-birinin üzərinə zor bəlaynan otuzdurulmuş itlərlə dolu, təkərləkli qəfəslə qayıtdı. Bu qədər iti qəfəsə doldurmasına səbəb var idi. Binqin yaşadığı Yulin şəhərində hər il it yemə festivalı keçirilirdi. Belə festivalın keçirilməsinə səbəb isə it ətinin insan bədəninə bol protein bəxş etməsi, bununla da bərabər it ətinin insanı soyuqlu günlərin təsirindən qorumasıydı. Həddindən ziyadə şüursuz və kasıb düşüncə tərzi olsa da, Yulində yaşayan şəhər əhli hər il festivalın vaxtı gəlib yetişəndə, küçələrə çıxıb güclərinin yetdiyi qədər çöl itlərini yaxalamağa başlayırdılar. Bazarlar it ətinin qoxusuyla boğulsa da, hər şeyə rəğmən öldürülüb dərisi soyulmuş yazıq heyvanların əti bol-bol satılır, canlı qətlinə fərman vermiş canilərin cibləri də bol-bol pulnan dolmağa başlayırdı. Nə isə söhbəti çox uzatmayıb qayıdaq Binqin yanına. Binq içərisi itlə dolu təkərləkli qəfəsi zirzəminin içərisinə yerləşdirdi. Təbii ki, Mulan o anda adəti üzrə Binqi gözləyirdi, yatmamışdı. Yatmadığına görə də ərinin əli dolu gəldiyindən əməlli başdıca xəbəri oldu. O Binq tərəfindən gətirilən itlərin

ertəsi gün keçirilən festivala aid olduğunu və itlərin evin zirzəmisində öldürüləcəyini yerindəcə anlamışdı.Binq, qorxaq çöl itlərini bir-bir qəfəsdən çıxardıb başlarına çuval keçirtdikdən sonra, nizəyə bənzər ucu iti uzun dəmir ilə itləri qətlə yetirdi, ardınca da dərilərini soymağa başladı. Mulana son mundarlıq artıq bəs edirdi. İtlərin məsələsi onu geriyə dönüşü olmayan qərarı qəbul etməyə məcbur etdi. Ertəsi gün gecənin düşməsini gözlədi. Binq evə gəlib, bütün işlərini görüb yatdıqdan iki saat sonra, Mulan yatdığı çarpayıdan qalxaraq ilk öncə qızını hazır edib, ardınca da özünü hazır edib ərinin cibindəki 1000 yuan pulu da götürərək qızı ilə bərabər yaşadığı vəhşət qoxan evdən və Binqin həyatından qaçdı.

Sabah olduğunda Binqi, Mulanın qızıyla bərabər onu səssiz tərk etməsi deyil, cibindən götürülmüş olan 1000 yuan pul yandırdı. Ancaq elə quru-quru da yanmaqla qaldığını da düşünməyək. Cibindən götürülmüş pula görə Mulandan polisə şikayət etdi. Müəyyən vaxt çərçivəsində Mulan xeyli axtarışdan sonra tapıldı. Binqin cibindən yoxa çıxmış pulu o, götürdü-

yünü boynuna aldıqdan sonra məhkəmə Binqin şikayəti üzrə Mulanı oğurluqda təqsirləndirərək iki il azadlıqdam məhrum edib, bir yaş yarımlıq qızlarının vəlayətində Binqə verdi. Çox vaxt keçmədi ki, Binq onun üçün əhəmiyyət kəsb etməyən atalıq məsuliyyətindən xilas olmaq niyyəti ilə qızı Şhaonu yüksək miqdarda pulun qarşılığında Şanxayın ən varlı ailələrindən birinə övladlığa verdi. Buna satdı desək ən doğrusu olar. Etdiyi mənəviyyatsızlığın qarşılığında ona verilmiş pulla daha komfortlu, daha gözəl ev alaraq yeni evinə köçdü. Demək olar ki qəssab Binq etdiyi övlad ticarətinin sayəsində işlərini xeyli irəlilətmiş oldu.

V

Boz getdikcə gedir. Qarşısına heç bir şikarın çıxmadığının şahidi olub, məcburən ailəsindən uzağa Nepalın şimalına, Himalayların düz içərisinə doğru yol alır, dişisiylə bərabər, iki həftədi dünyaya göz açmış balaları isə Nepalın cənubunda Terrai bölgəsində, yerin altında onlar üçün qazılmış lağımın içərisində uzanaraq,

Bozun geri qayıtmasını gözləyirlər. Bir gün yarım vaxt keçib, lakin Boz ailəsinin yanına hələ də qayıtmayıb. Dişi boz çox gərgin görsənir. Tez-tez lağımın çölünə çıxıb gah ulayır, gahda hürür. Ancaq nə etmək olar ki? Boz hələ də ortalarda yoxdur.

İkinci günündə rəngi qaraya boyandı. Dişi boz dikəlmiş vəziyyətdə lağımın qarşısında oturub dərin diqqət içərisində ətrafı süzməklə məşquldur. Hər xırda səsin eşidildiyi an erkəyinin gəlişiylə bağlı ümüd, gözlərində parıltı, sonradan isə aldadıcı və o səsə küsdürücü bir qırğınlıq yaradırdı. Təəsüf ki, erkəyi tezliklə gələ bilməyəcəyi qədər uzaqlara addımlamışdı. Əslində onun pəncələriylə bu qədər uzaqlara iz salmasında məqsədi əli boş qayıtmamaq istəyinin vacibliyi idi. Elə hey uzaqlar, uzaqlar deyirik. Bəs Boz görəsən uzaqlıqların hansı tərəfindədir?

VI

Havalar yazın ətəyini qoxlamağa başlasa da, axşam vaxtı, Yulində sərinlik ətrafı cuzi üşüdür. Binq içərisini genişlətmiş olduğu qəssab dükanına daxil olaraq işçilərinə üzün tutub de-

yir:

– Bu günlük bu qədər iş kafidir. Hamı evinə gedə bilər.

Bəli! Binqin indi həm böyük qəssab dükanı və bu dükanın içərisində də beş nəfər çalışanı var. O daha özü ət satmır. Yalnız ətlərin dükana gətirilməsi, özünə sərf etdikdə tərəzidə ətlərin çəkilərinin dəqiq ölçülməsi, sərf etmədikdə isə qeyri dəqiq ölçülməsi, bir də ki, pul işləri ilə məşqul olur. Çalışanlarına öz tapşırığını verib qapını açıb dükandan çölə ayağını atmaq istəyir ki, uzun boylu, enlikürək, saçları arxaya daranmış, səliqəli geyimdə cavan şəxsin dükana doğru gəldiyini görür. Budur həmin cavan şəxs qapını açaraq dükana daxil olub, bir başa üzünü işçilərə tərəf tutub deyir:

– Salam. Deyə bilərsiz burada Binq hansınızsız?

Binq tez üst başına əl çəkib, cavan şəxsin önünə atılıb həmin anda üz gözündə əks olunan iyrənc təbəsümü dişlərini ağartmaqla ifadə edərək deyir:

– Hahaha Binq mənəm cənab, buyurun mən sizə necə kömək ola bilərəm?

Əlbətdə ki, o belə münasibəti bu cür geyimdə, səliqədə olan şəxslərə xərcləməyi özünə

həmişə borc bilir. Yaxşı anlayırdı ki, dükana daxil olan adam sıradan biri deyil. Sıradan biri sayılması üçün həddindən ziyadə səlahiyyətli görsənir. Axx, bu Binq necə də bic və yaltaqdır.

Dükana yenicə daxil olan şəxs əliylə dükanın çıxış qapısına işarə edib deyir:

– Gəl çölə çıxaq, orada ətraflı söhbət edərik.

Binq yaltaqlığın ən üst təbəqəsinə tənginəfəs qalxaraq dedi:

– Bəli, bəli cənab, əlbətdə çıxaq, ha-ha-ha, mən sizin kimi möhtərəm cənabın sözünü heç yerə sala bilərəm?!!

Çölə çıxıb axşamın qaranlığına bürünmüş sakit döngələrin arasında irəliləməyə başlayırlar.

Binq:

– Hörmətli cənab, buyurun, mən sizə necə kömək ola bilərəm? – deyərək acizanə görkəm alır.

Başa düşmək olmur ki, Binq niyə bu qədər yaltaqdır. Özündən iki qram yuxarı səviyyə də adam görən kimi yaltaqlanmasa, elə bilin ki, ölər, həmin dəqiqə ürəyi partlayıb sanki keçinər.

– Mənim adım Qaodur. Mən buraya Çinin böyük şəhərlərindən olan Quançjao şəhərinin ən məşhur, ən tanınmış, ən varlı iş adamı Ken zhi cənablarının əmri və istəkləri ilə gəlmişəm.

Yulinə göndərilmə səbəbim səni tapmaq, lazım olan məsələ ilə bağlı sənə tapşırıqlarımı verməkdir.

Yazıq Binq qorxudan nə vəziyyətə düşdü?! Elə bilin ki, bundan fağır, bundan günahsız, bundan dilsiz adam yer üzündə tapılmazki tapılmaz. Dili topuq vura vura kəkələyir:

– Ccccənab "Qao"axı mən nə etmişəm? Əgər sizə əziyyət vermirəmsə sualımı cavablandıra bilərsiniz?

Qao təmkinlə deyir:

– Binq sözümü kəsmə, səbrli ol. Sənin, Yulinin ən yaxşı, tapılmaz, fərasətli qəssabı olduğunu deyiblər. Ancaq onu da deyim ki, ətrafındakı insanlar satdığın məhsulun qeyri təmiz olduğundan bol-bol deyindilər mənə.

Binq gözlərini bərəldərək guya ki, bundan təmizi yoximiş kimi dillənir:

– Şaiyədi hamısı, cənab "Qao". Onlar mənim inanın ki, gecə, gündüz, ötən hər saniyə paxıllığımı çəkənlərdilər.

Qao təmkinli davranıb, öz sözünün kəsilməsinə əhəmiyyət qoymadan, başladığı fikri tamamlamaq üçün yenidən danışmağa başlayır.

– Ancaq Yulində bir çox heyvanın ətini sənin qəssabxananda tapa biləcəyimi də deyirlər.

Elədirmi?

Binq təkəbbürlə əllərini şalvarının yan ciblərinə salıb, sol ayağını da qabağa ataraq dedi:

– Bəli, bəli, mən həmişə əlimdən gələni etmişəm ki, öz işimin fərqliliyi ilə daim başqalarından seçilə bilim. Bunun mənim üçün nə ziyanı ola bilər ki? Əgər iş mənimdirsə o işdə uğurlar əldə etmək də mənim boynuma düşür. Sizin kimi səlahiyyətli cənabın mənim işimlə bağlı bu cür gözəl tərifl ər yağdırması ax, məni necə də xoşbəxt edir!

Qao:

– Qulaq as! Tərifə layiq olub olmayacağını sənə tapşırılan işin sonunda anlayacağıq, mənim sənə öz fikrimlə tərif yağdırdığımı da xatırlamıram. Sənə dediyim iki kəlməlik cuzi tərifə bənzər sözlər mənim fikrimin və dilimin məhsulu deyil! Bil ki, hal-hazırda mənim sənin lə bağlı heç bir düşüncəm yoxdur. Odur ki, mən Ken-Zhi cənablarının işlərini, buyurduğu tapşırığı həyata keçirən işçiyəm. Sənin haqqında mən yox Ken-Zhi cənablarına onun ən yaxın dostu, həmçinin də "Pekin"in adlı sanlı, varlı cənablarından "Ruo-Jian" məlumat verib. Bildirib ki, Ken-Zhi cənablarının istəyini yalnız sən düzgün icra edə bilərsən.

Ruo-Jian Binqin öz qızını pul qarşılığında övladlığa verdiyi kəsdi. Binqin qızı indi Ruo-Jianın nüfuzuna keçmişdi. Səbəbi isə həyat yoldaşıyla Ruo Jianın uşaqlarının olmaması idi. Binq həmin vaxtı Jiana özü, həm də işi haqqında xeyli məlumat vermişdi.

Qaonun sözü bitər bitməz Binq daha da yaltaqlanıb, uydurma sözlər ilə özünü onun gözündə qaldırmağa çalışaraq deyir:

– Aaa!! Ruo-Jian cənabları, doğrudur, doğrudur. Bizim həddindən ziyadə çox gözəl, mehriban münasibətimiz var. Siz heç bilirsiz o mənim xətrimi nə qədər uca tutur? Əlbətdə ki, mən də belə xətir hörmətin qarşısında çox utanıram, amma inanırsız (guya ki, utanırmış kimi astadan) mən də onu yaman çox istəyirəm a.

Qaonun böyük yalançılıq qarşısında yavaş-yavaş təmkini azalmağa başlayır və qəzəblə:

– Ey sən! Bəlkə mən sözümə davam edim hə? Bəlkə qulaqlarını dörd şəkləyib, mənə sözümü kəsmədən diqqətlə qulaq asasan?!!

Qaonun əsəbi sözü bitən kimi Binq yenə qorxmuş və pərt olmuş halda başını aşağı salıb yalvarıcı tərzdə deyir:

– Bağışlayın, cənab, mən sizi dinləyirəm, buyurun.

Qao:

– Ken-Zhi cənabları Nepalda böyük, ucu-bucağı bilinmiyən malikanə tikdirib. Haqqında elə indicə məlumat verməyə başladığım bu malikanənin ərazisi sandığımızdan da genişdir. Həmin o geniş ərazidə hörmətli Ken-Zhi cənabımız hər tərəfi dəmirdən hazırlanmış ferma da tikdirib. Ferma hal-hazırda boşdur, içini də heyvanla doldurmaq tapşırığı sənə verilib. Lakin bu ferma adi bizim tanıdığımız, bildiyimiz heyvanlardan ibarət ferma olmayacaq, ferma canavarlardan ibarət ferma olacaq. Bundan ötrü də Ken-Zhi cənablarına, nəzərdə tutmuş olduğu canavar fermasını işə salmaq üçün ondan az olmayan sayda diri canavar balası gərəkdir. İmkan edə bilsən, iki ədəd də böyük canavar ovlayarsan, yəni öldürüb gətirərsən, onsuz da başqa cür mümkün də deyil, ancaq öldürməlisən. Əslinə qalsa, iki böyük canavarı gətirməyin o qədər də vacib deyil, ancaq gətirsən, hörmətli cənabımız çəkdiyin əziyyətinə elə artıq olaraq da qiymət verəcək. Bunlar fermaya yox, avqust ayında cənabın oğlunun doğum günü ilə əlaqədar, bax o mərasimə lazımdır. Həmin gün Ken-Zhi cənabları qonaqlarına canavar ətindən, fərqli dadda azuqələr hazırlatdırıb təqdim

etmək istəyir. Yəni belə Binq! Haqqında danışmış olduğum fermadan dünyanın heç bir bölgəsində yoxdur, olmayacaq da, təkcə Ken-Zhi cənabları bunu ilkləşdirmək istəyir.

Görəsən Binqin bayaqdan niyə səsi çıxmır? Yoxsa o, doğrudan danışacağı anda Qaonun əsəbiləşəcəyini düşünüb qorxudan danışmır?

Qao:

– Ey Binq, nə deyirsən? Cavab ver.

Elə fikirləşdiyimiz kimidir. O, Qaonun sözünü bitirməsini gözləyirmiş. Qaonun sözü bitər, bitməz Binq oddan sıçrayan qığılcım kimi:

– Nə canavar ferması? Canavar balaları? İki böyük canavar leşi? Cənab, xatırladım ki, mən ovçu yox, qəssabam. Canavar balasını diri tutmaq haa! Özü də on ədəddən az olmamaq şərti ilə. İlahi, insanlar canavar sürüsünün içərisindən sağ çıxa bilmir, siz isə məndən onları diri tutmağımı istəyirsiniz. Yox! Bu mümkün deyil, mən həyatımla qabaq-qabaqa dayanıb belə riskli oyun oynaya bilmərəm. Məni bağışlayın!

Dəli kimi öz-özünə asta səslə sayıqlayıb, deyinərək:

– Axı mən bu canavarları haradan tapacam? Tutalım ki, tapdım, üzbəüz dayanıb canavarlara deyəcəyəm ki, verin balalarınızı aparım, mənə

bu işi tapşırıblar?!

Üzünü Qaoya tərəf tutub ürkək səslə deyir:

– Cənab Qao, canavar nədir axı, nəyə gərəkdi belə mındar, vəhşi heyvan? Bəlkə (yaltaqlanaraq) Ken-Zhi cənablarına it ferması düzəldək hə? Nə deyirsiniz?

Qao əsəbindən yumruğunu sıxıb qəzəblə:

– Axmaq, sən nə danışırsan? Cənab Ken-Zhi kimi böyük şəxsiyyətə sahib insanın, sənin fikirlərinə yox, yalnızca köləliyinə ehtiyacı ola bilər. Deyirəm Ken-Zhi cənablarına on ədəd diri canavar balası lazımdır və bu məsələylə bağlı da sən görəvləndirilmisən. Cənabımız sənin gətirmiş olduğun canavar balalarını çoxaldıb, yüz qata baha qiymətə öz təbəqəsindən olan varlı şəxslərə satacaq. Canavarları Himalay dağ silsilələrinə yaxın, Nepalda, Terrai meşəliyində axtaracaqsan. Nə qədər cənabın iqamətgahına yaxın yerlərdə hadisələr baş versə, o qədər də məqsədə uyğun olar. Yol üçün bütün nə lazımdırsa, hər bir şey: ov tüfəngi, güllə, qida, yatmağa çadır bunun kimi bir sıra ləvazimatların hamısı ilə təchiz olunacaqsan. Yanıvada ürəyin nə qədər adam istəyirsə, o qədərin də al. Xülasə, keçək əsas məsələyə. Gördüyün bu cür əziyyətli işin qarşılığında isə sənə beş yüz

əlli min Amerika dolları veriləcəkdir. İşin ciddiliyini sənə sübut etməkdən ötrü bu məbləğin yüz minini elə indicə alacaqsan – "deyib əlindəki çantanı Binqə uzadır. Binq donmuş vəziyyətdə dili topuq vura-vura, gözləri bərələ-bərələ əsən əlləriylə çamadanı götürmək istəyir ki, Qao çamadanı geriyə çəkib deyir:

– Nc-nc-nc, belə tələsmə, Binq, mənim yüz mini sənə verməyim üçün məni aldatmayacağına dair bu məbləğdə nə vəd verə bilərsən? Xoş ki, sənin o yekə başının gücü deyil bizi aldatmaq. Ancaq yenə də biz səni axtarmaq əziyyətinə düşməməkdən ötrü gərək ki, sən yüz min dollar məbləğində nəyisə girov qoyasan, ya da istəyirsənsə heç pul götürmə işinin axırında hamısını bir yerdə götürərsən.

Binq gah pul dolu çamadana baxır, gah da Qaoya. Nəfsin çatdasın Binq, necə də ağzın sulanır. Nəhayət Binq bir təhər gözünü çamadandan güc bəlaynan çəkərək öz qərarını bildirir.

Binq:

– Yox mən yüz minə görə nəyisə girov qoya bilmərəm, ən yaxşısı mən pulu sonda götürüm olarmı cənab?

Qao:

– Aha, niyə də olmur, onsuz da çamadandakı

puldan dörd dəfə böyük pul işin sonunda səni gözləyir Binq!

Binq əllərini bir-birinə sürtə-sürtə:

– Cənab Ken-Zhi əmin ola bilər ki, o bu işi əsl peşəkarına tapşırıb.

Ay səni ac göz!! Pulu görər-görməz dovşan ürəyi necə də şirə döndü! Ancaq ona çıxacağı yolda sakit, sözünə qulaq asacaq, əmrinə tabe olacaq köməkçilər gərəkdir. Heç də uzağa getməsinə ehtiyac yoxdur. Həmin adamlardan ikisi Binqin qəssab dükanında çalışır. Adları isə Lanq və Daodur.

Lanq və Dao uşaqlıq dostudurlar. Daha doğrusu onların dostluğu kimsəsizlər evindən başlayıb. Görəsən onlar necə insanlardılar? Gəlin hələlik az da olsa onları tanımağa başlayaq.

Lanq uca boya, cavan, iyirmi altı yaşı olmasına baxmayaraq, sıx ağ saçlara, qoz belə, uzun dırnaqlara, ağzında alt-üst üç dörd dişə sahib baxımsız, vaxtından tez qocalmış oğlandır. Bəs Dao?

Dao Lanqdan üç yaş böyükdür. Danışığında anadan gəlmə qüsur var. Bir söznən tez-tez danışanda, yaxud da həyəcanlı vaxtlarında dili pəltək vurmağa başlayır. Lakin Lanqdan fərqli olaraq onun boyu 12 yaşından bu yana 25 sm

artıb. Başında isə bir tükə belə sahib deyil. Ağzında dişlərinin olmasına rəğmən, hamısı da çürükdür. Elə bu səbəbdən də ağzını nə vaxt açıb iki kəlmə söz danışarsa, ifunət və qoxudan adamın lap gözləri yaşarar. Dao nə zaman ağzını açırsa, ondan ət alan alıcılar ya əlləri ilə burunlarını tuturlar, ya da fuuu edib geriyə çəkilirlər. O da dostu kimi əl dırnaqlarını tutmur. Arabir ikisi də dırnaqları barmaqlarının ətini incidəndə, dırnaqlarını dişləri ilə qırıb yerə tüpürürlər, ya da başlarını qatmaq üçün dişləri ilə qırdıqları dırnaqlarını ağızlarında oynadırlar. Başlarını qatan bu vərdiş, uşaqlıqlarından cavanlıqlarının indiki gününə qədər onlarda boş vaxtlarının ən sevimli məşğuliyyətinə çevrilib. Ortaq cəhətləri bununla kifayətlənir desək, inanın ki, yanılarıq, çünki həzz alaraq gördükləri başqa vərdişləri də var. Elə həmin vərdişləri də onları qəssablıq sənətinə yiyələnməyə sövq edib. Bəhs etdiyimiz vərdişləri çöl heyvanlarının başını kəsmək, suda boğmaq kimi bir sıra iyrəncliklərdən ibarətdir. Heyvanlara əzab verib öldürərkən bir-birilərinə baxıb gülməyi də unutmurlar. Talehin pisliklə bəzənmiş çirkli üzü, onları özlərinin tayı olan Binqlə görüşdürərək, aldıqları həzzi birə beş daha da yüksəklərə

qaldırmışdı. Binqin də onlardan geri qalan olmaması belə mənzərəni tamamlayırdı. İşin başqa yanı da var ki, Lanq ilə Dao Binqdən ehtiyat edirlər. Ehtiyat etmələrinin səbəbi isə çox bəsitdi. Yulində çöl heyvanlarını məhv edən insanlar çoxluq təşkil etsələr də, onlar belə baxımsız işçilərdən uzaq dururlar. Ancaq Binq uzaq durmamışdı. Onun belə vəhşi işçilərə əməllicə ehtiyacı var idi. Lanqla Daonun heyvanlarla vəhşi rəftarı Binqi müxtəlif mənalarda möhkəmcə sevindirirdi. Belə sevinci isə onlara başqa dükanlarda verən olmayacaqdı. Həmin səbəbdən də ikisi də, Binqə itaət etməyə bu saat da məcburdurlar.

Səhərdir. Bol Günəş istisi, saçaqlanmış şüalarıyla Yulin şəhərinin yanaqlarını qızartmağa başlayıb. Sarsaq Binq qəssabxananın qapısını açmadan öncə dayanıb üst başına düzəliş edərək, möhtəşəm yekəxanalıqla dükanın çöl qapısını açıb içəri daxil olur. Elə bil dünən Binq qapıdan çıxıb gedəndən sonra gəzişdiyi döngələr arasında ona Çinin imperatoru vəzifəsini həvalə ediblər. İçəri daxil olar olmaz, əliylə işarə edib deyir:

– Lanq və Dao, tez gəlin yanıma.

İkisi də əllərindəki işi yarımçıq qoyub cəld

Binqin yanına qaçdılar. Binq əllərini arxasında birləşdirərək dükanın içərisində o yan-bu yana gedib, gəlir, gedib, gəlir. İkisi də lal-dinməz dayanıb Binqin onları nədən ötrü çağırdığını, nə deyəcəyini gözləyirlər.

O dükanının içərisində gəzişməyi dayandırıb sözünə başlayır:

– Arxamca gəlin.

Qəssabxananın qapısını açıb çölə çıxar-çıxmaz üzünü Lanq və Daoya tutaraq:

– Deməli belə, çox diqqətlə dinləyin məni. Uzun vədəli, lakin böyük gəlir gətirən iş yolculuğuna çıxıram. Ancaq bu yolçuluqda köməkliklərini məndən əsirgəmiyəcək iki nəfər gərəkdir. Dünən bütün gecəni düşünmüşəm. Çox düşünüb, götür qoy etdikdən sonra, mənə yeni işimdə kömək ola biləcək adamların sizin ikinizin ola biləcəyini dəqiqiləşdirdim.

Lanq:

– Cənab Binq, biz necə kömək ola bilərik? – deyərək ona məzlum-məzlum baxır.

Binq:

– Çox yaxın dostum, Quançjaonun ən varlı, əsilzadəli adamlarından olan Ken-Zhi cənabları mənə mühüm bir iş tapşırıb. Təbii ki o yalnız ən çətin, ən ağır məsulliyyət daşıyan işləri həmişə

öz dostuna, yəni mənə etibar edir. Gələk əsas məsələyə. Biz canavar ovuna çıxırıq.

Dao və Lanq bir ağızdan gözləri bərəlmiş halda:

– Nə? Canavar?

Binq:

– Aha, canavar. Qorxmağa elə də böyük səbəb yoxdur. Hər şeyi planlı şəkildə edəcəyik. Arxayın olun, canavarın qarşısına çıxıb deməyəcəyik ki, "canavar qardaş, gəl qucağımıza səni aparaq". Bir söznən görəcəyimiz iş üçün bizə lazım olan bütün köməkliklər ediləcək. Bizə on ədəd canavar balası ovlamağımız tapşırılıb, özü də sağ vəziyyətdə. İki ədəddə böyük canavar öldürüb gətirsək lap əla olar. Düzdür böyük canavar ovlamağımız o qədər də şərt deyil, amma biz yenə də öz cömərdliyimizi sübüt etməliyik. Bu da bizdən dostum Ken-Zhi yə hədiyyə olar.

Dao pəltək vuran dili ilə həyacanla sözə başladı:

– Ccccənab BBBBBinq olar biiir söz sssoruşum?

Binq dili ilə "hə" sözünü deməyə tənəzzül etmədən gözləri ilə Daoya sualını verməsi üçün işarə edir.

Dao əllərini bir-birinə möhkəmcə sıxmış halda Lanqa baxaraq Binqə sualını verir:

– Mənə ççççox maaarraqlıdır ki, biz canaaannavarları, balalaaarrrını harda ovlayacağıq?? Hə bir söz də deyim, hörmətli dostunuzun adı nə idi?

Lanq:

– Ken-Zhi.

Dao (baş barmağı ilə Lanqa əla işarəsini verərək) hhhə düzdü Ken-Zhi. Bax Ken-Zhi cənabları canavar balalarını neyləyir axı?

Binq Dao və Lanqı gözüylə diqqətnən süzdükdən sonra əllərini bir birinə möhkəmdən vurdu. Çıxan şappıltı səsindən Daoyla Lanq diksindilər.

Binq:

– Aydındır, aydındır. Deməli siz hər şeyi dərinliyinəcən öyrənmək istəyirziniz. Əlbətdə ki, niyə də olmasın, bu sizin ən təbii haqqınızdır. Bir şeyki, əgər siz bu daşın altına əl qoyacaqsınız, onda hər şeyi bilməlisiz. Deməli belə.. Hörmətli dostum Ken-Zhi cənabları "Nepal"da gözəl malikanə tikdirib. Söhbətini açmış olduğum malikanənin içərisində dəmirdən ferma da tikdirib. Uzun sözün qısası ferma canavar ferması olacaq. Bizim ovladığımız canavar bala-

ları fermada çoxaldılıb ardınca da çox yüksək qiymətə istəyən imkanlı şəxslərə satılacaq. Yerdə qalan iki canavar leşin isə Ken-Zhi cənabları oğlunun irəlidən gələcək olan doğum günündə böyük fəxrlə, qonaqlarının masasına yemək halında sunacaq. Binqin sözü yarımçıq kəsildi və Lanq sol əlini yuxarı qaldırıb barmağı ilə bir tutub, gözlərini qıyaraq öz-özünə dedi:

– Sən canabdakı fikrə bir bax! "Nepal"da gözəl malikanə, malikanənin də içərisində hər tərəfi dəmirdən hazırlanmış ferma, fermada ki, nə ferması?

Üzünü döndərib dəhşətdən gözləri bərələ qalmış Lanqa sual verir. Lanq da üzünü Daoya çevirmədən asta səslə:

– Canavar ferması!

Sonra isə kəkləyərək deyir:

– Ccccanavar. Də də də dəhşət! Əhsən! Gör pullu olmaq insanı nələr düşünməyə vadar edirmiş?!

Binq Lanq və Daonun dəhşət dünyasında boğulduğunu görür. Sözün doğrusu o elə özü də ilk öncə bu söhbətləri Qaonun dilindən eşidəndə qorxuya, həm də gərginliyə qapılmışdı, lakin onu qorxu və gərginliyin təsirindən təklif

olunan beç yüz əlli min Amerika dolları xilas etmişdi, indi Binq özü də ona təklif olunan məbləği və yaxud da hər hansısa məbləği demək-lə Lanqla Daonı boğulduqları dəhşət dəryasından xilas etməlidir. Nəhayət Binq dilə gəlib danışdı:

– Ey, ey, ey, ey, oyanın. Bəsdirin sayıqladınız. Siz düşünməyin ki, mənim dostum Ken-Zhi cənabları sizin əziyyətinizi qiymətləndirməyi unudacaq.

– Bu Binq də aləm yalançıdır, aa!! Bayaqdan Ken-Zhini dostu bilib ki bilib də, dəhşət, görək sonra nə yalan çırtdadacaq.

– Mənim qəssab dükanımda bir ilə qazanacağınız pulu, sadiq dostum az müddətdə sizə yüz misli artıq qazandıracaq. Yəni ki, adam başına hər ikinizə də iyirmi üç min Amerika dolları. İşinizi bitirin, işin sonunda pulunuz cibinizdədir. İnana bilərsiniz ki, işi təmiz sonlandırmıyana kimi o bizə pulun rəngin də göstərməyəcəkdir. Dost mənimdi, bilirəm də. O belə məsələlərdə çox dəqiqdir. Dostluqda, qohumluqda iş ortaya girdisə, onu tanımaq olmur. Qəti səhv başa düşməyin sözümü, o yalnız iş barəsində mənə nəyisə keçmir, ancaq dost kimi məni coşqun sədaqətlə sevir. Həmçinin mən də onu.

Başa düşmək olmur ki, bu adam niyə Ken-Zhinin yaxın dostu olduğunu deyir?Axı belə bir yalanı nə səbəbə uydurur?

– Hə indi nə deyirsiniz? Cavabınız nədir? Razısız?Yoxsa razı deyilsiz?

Lanqla Dao başlarını aşağı salıb gözlərini yerə dikdilər.

Binq:

– Əgər razı deyilsizsə əmr edirəm mənim dükanımı tərk edib, başqa yerə cəhənnəm olasız, başqa qapıda qəssablıq edəsiz!!! Əgər edə bilsəz əlbətdəki! – deyə bağırdı.

Təbii ki, Lanq və Dao işlərini itirmək istəmədiklərinə görə, Binqin bu cür danışığından ürkərək onun təklifini sərhədsiz acizliklə qəbul etdilər.

Elə həmin gün axşam Qao Binqin dükanına gələrək, canavar ovuyla bağlı ətraflı söhbət edib yol üçün lazım olan hər şeylə, onları təmin edərək bol bol öz tapşırıqlarını verib sonrada getdi.

V

İki gün tamam oldu. Gecənin zülmət qaranlığında üç şey sezilir; Bozun işıq saçan bir cüt gözləri, qaranlıq səmaya xal tək səpələnən

parlaq ulduzlar və özünü bir türlü gizlədə bilməyən Ay. Qulaqlar isə yalnız və yalnız bir səsi əzbərləyir, o da Qanq çayının şırıltılı öpüşləri. Öz mənbəyini Himalay dağlarından götürən Qanqla onun qolları, Avrasiya materikinin ən bol yağıntılı ərazisindən axmaqla bərabər Benqal körfəzində böyük delta yaradır. Bir sözlə Qanq Himalayların salamın götürüb bir başqa Hind okeanı hövzəsinə çatdırmaqla məşquldur.

Boz yorğun, küskün halıyla dikəlib, Qanq çayına yaxınlaşır. Aralarındakı məsafə elə də böyük deyil, təxminən üç dörd addım. Çaya yaxınlaşar yaxınlaşmaz su içmək istəyir ki, birdən qəzəblənərək dişlərini qıcayıb mırıldanmağa başlayır. Pəncəsiylə suya cırmaq atıb geri çəkilir. Axı nə oldu? Yüz faiz ya çayda balıq görüb, ya da onu tutmaq həvəsinə qapılıb. Nə isə hər nə olubsa, bir azdan məlum olacaq. Budur yenidən çaya yaxınlaşdı. Üzünü suya doğru uzadıb, boynunu çəpinə əyərək böyük təşviş içərisində çaya baxmağı davam etdirir. Çox çəkmir ki, cəld başın göyə qaldırıb gözün aya zilləyir.Dərin məna ilə aya baxdıqdan həmən sonra, üzünü yenidən çaya tərəf tutur. Artıq hər şey məlumdur, məlumluğuyla bərabər də gül-

məlidi. Siz demə ay işiği Qanq çayı hövzəsinə düşərək çaya yaxınlaşan Boza öz əksin göstəribmiş.

Beləcə Boz saatlarla oyuncağını tapmış uşaqlar kimi çayın ətrafında dövrə vuraraq, suda əks olunmuş simasına baxmaqla vaxtını keçirməyə başlayır.

Səhər yavaş-yavaş başı öz əksinə qatışmış Bozdan xəbərsiz açılmağa can atır. Boz axşamdan görmüş olduğu gözəl təbiət əsərinə xəyanət etməmək üçün, gecə boyu Qanq çayı hövzəsindən su belə içmədi. Artıq yorğun düşmüşdü. Həm dayanmadan üç gün böyük yol qət etməsi, aclıq, həm də yuxusuzluq fiziki cəhətdən onu tamamilə əldən salmışdı. Buna baxmayaraq o öz məsuliyyətini çox yaxşı dərk edirdi. Çünki gəldiyi üç günlük uzun yolun başında dişisi və doğma balaları onu dörd gözlə gözləyirdilər. Şanssız Boz bu neçə gün də heç bir şikarıyla qarşılaşmamışdı.

Bu nədi? Uzaqdan nəsə yeməli şikar görsənir. Əsl Bozu, onun ailəsini doydura biləcək ovdur. Bu ovun adı qoyundur. Dəqiq desək qoyun Qanq çayı ətrafında yaşayan hinduların qoyun sürüsündəndir. Yüz faiz Qanq çayı ətrafında dolaşan bu tənha qoyun da öz sürüsündən ayrı

düşmüşdür. Bozun başqa əlacı yoxdur, qoyunu ovlamalıdır, özü də qoyun çoxlu bol ətə sahibdir. Demək olar ki, əsl Bozun axtardığı ovdur. Bədənini aşağı əyən Boz gözlərini şikarına tuşlayıb onu ürkütmədən yaxalamaqdan ötrü özünü Qanq çayının yan tərəfindəki daşın arxasında gizlədir. Qoyun ondan təxminən yetmiş metr aralıda dayanıb, çayın ətəyindən su içməklə məşquldur. Boz qoyunun başının suya qatışdığını hiss edib, onunla arasındakı məsafəni azaltmaq səbəbi ilə şikarına bir xeyli yaxınlaşır. Qoyunu tutmağın əsl vaxtıdır. O, gözlərini qoyuna zilləyib su içib qurtarmasını gözləyir. Arxasında əcəlinin ondan xəbərsiz dayandığından məlumatsız olan qoyun içdiyi sudan doyduqdan sonra geriyə dönür.

Qoyun və canavar üz üzədirlər. Qoyun Bozun hər ovu kimi əlacsız, qorxmuş vəziyyətdə çaşqınlıqla dayanır. Boz şikarını diqqətlə süzür, süzür, süzür və üzünü arxaya çevirib, qoyunu özü ilə baş-başa buraxıb həmin ərazidən uzaqlaşır. Əlbətdə uzaqlaşacaq, Boz qurdlar heç bir zaman boğaz olan heyvana toxunmurlar, siz demə bayaqdan Boz qurd qoyunu bu səbəbdən dolayı diqqətnən süzürmüş.Yazıq heyvan. Neçə gündür sanki bütün işləri lənətlənib. Bəlkə də

onun üçün ən yaxşısı geriyə qayıtmaqdır. Düşmüş olduğu vəziyyətə özü də mat qalıb. Görəsən təbiət Bozdan yana cansızmı olub? Məgər ətrafda ovluq heyvan qalmayıb? Əlbətdəki, qalıb, ancaq nə olsun onun ki qarşısına heç bir heyvan çıxmır. Boz çox qəzəbli görsənir. Çarəsizliyi, şansızlığı heç cürə qəbullana bilmir. Getdiyi yolda öz addımlarını dayandırıb yerə oturaraq, çənəsini əllərinin üzərinə qoyub qaraqura fikirlər düşünməyə başlayır. Dişisindən ötəri darıxmış olması mütləqdir. Körpələri üçün də həmçinin. Elə bu böyük məhəbbətə qarşı duyduğu acizlik deyildimi onu uzaqlara daşıyan. Gəlin çox da gileylənmiyək, təbiət Boza qarşı elə də qəddarlıq etmək niyətində deyil. Çünki ondan xeyli uzaqda dayanıb öz gözəlliyi ilə boy göstərən ceyran Bozun dişləri arasında çeynənməyə hazırdır.

Boz yerindən dik atılır. Aclığının və ailəsindən uzaq düşməsinin hirsi onun gözlərini alov kimi işıqlandırır. Sanki həm aclığının, həm də neçə günlük şansızlığının əvəzini çıxmaqdan ötrü ov axtarırmış. Siz hələ bir ceyrana baxın, ALLAH saxlamış yeyilməyə dünəndən hazırmış. Görün heç tükü tərpənir? Budur Boz öz vəzifəsini icra etmək səbəbiylə hərəkətə

keçdi. O bir neçə saniyədi ki, ceyranın üzərinə şığıyır. Məsafə elə də böyük məsafə deyil. Təxminən əlli metr. Boz qaçır, qaçır, qaçır! Çənəsi altından çıxan mırıltı səsi torpağa çırpılan ayaqlarının səsi ilə birləşib, ceyranın qulaqlarında qorxu sinfoniyası kimi səslənir. Nəhayət ceyranın qulaqlarını cingildədən qorxu simfoniyası, onun qulaqlarını kar edir. Bozu isə ailəsinə tərəf yolçu.

VI

Quşların pıçıltılı səsləri, onların qanadlarını çırparkən ağac yarpaqlarının, budaqlarının titrəməsi, mavi səmanın qoynuna xal kimi səpələnmiş bir iki bulud parçası və bütün bunları işıqlandıran parlaq gözlü Günəş yenə də yüksək vəfalılıqla təbiəti bəzəməklə məşquldurlar. Binq, Lanq, Dao isə bu bəzəyi dağıtmaqdan ötəri səhər erkəndən Nepala çatıblar. Qaonun tapşırığı ilə Nepal hava limanında Binq və onun dəstəsini bir nəfər qarşılayıb lazımı məntəqəyə tərəf onları yolcu etdi. Onlar həmin bir nəfər tərəfindən görəcəkləri iş üçün gərək olan ov ləvazimatları yəni, çadır, üç ədəd ov tüfəngi, səkkiz ədəd bütövlüklə dəmirdən hazırlanmış

tələ, on beş paket patron, bol yemək və bir də "Nissan" markalı ciplə təchiz edildilər.

Lanq ilə Dao maşına doldurulmuş ov ləvazimatlarını yerə endirirlər. Binq isə maşından kənarda dayanaraq dodaqlarının arasına qoyduğu qəlyanını sümürür. O artıq Nepala gəlib çatdığına görə canavar ovuyla bağlı ən xain planlarından birini qurmalıdır. Lakin bunun üçün ilk növbədə canavarların ən sıx olduğu yeri tapıb təyin etməlidir. Amma necə? Necəsi odur ki o öz dəstəsi ilə meşəni əməlli başlıca gəzməlidir. Ov ləvazimatlarının hamısını Lanq və Daoya yüklətdirib özü isə belindəki kəmərə bağlanmış orta böyüklükdə içi iki ədəd çuvalla doldurulmuş çanta, əlində də ov tüfəngi götürür. Maşını da meşədə ağaclığın ən seyrək olduğu yerdə həmin seyrəkliklə baş-başa buraxıb gözdən itirlər.

Gün ortasından çıxıb, axşam yavaş-yavaş yaxınlaşıb, onlar hələ də yol gedirlər. Lanqın qoz belinin ortasından asılan bel çantası o qədər böyük görsənir ki, ondan bir az arxada gedən Daonun sifətini görmək mümkün deyil. Günəşin yavaş-yavaş batmasına baxmayaraq onun gün ərzindəki qaynarlığı üç nəfər ovçunun sifətini necə qızardıbsa, hələ də qızartı onların

sifətindən çəkilməyib. Zərrə-zərrə batan Günəş Daonun gözlərini yamanca yorub, elə buna görə də önünü görməyə çətinlik çəkir, arada gözlərini yumub yeriyir. Belə şəkildə yol getməyin ona xətər yetirəcəyi mütləqdir. Budur yetirdi də. Axı adam da gözü yumulu yol gedər? Yerə sərilmiş ağac kötüyü onun ayaqlarını necə bir-birinə dolaşdırırsa Daonun vəziyyətində çarpayıya uzanıbmış kimi hal sezilir. Lanq Daonun vəziyyətinə elə gülür ki, qəh-qəhəsinin səsi meşənin bir ucundan o biri ucuna uzanır. Bəs Binqin niyə səsi çıxmır? Onun qulaqları bu saat həm qorxusundan, həm də nəfsindən ancaq canavar səsinə, canavar ulartısına şəklənib. On, on beş saniyə ötdükdən sonra Binq böyük qəzəblə Lanqa baxır, Lanq isə heç ona əhəmiyyət verməyib, elə hey gülür. Dao yerdə necə də şirin yuxuya gedib. Binq əlini atıb Lanqın yaxasından tutaraq asta səslə deyir: Axmaq sən neynirsən? Bizi burda canavarlara yem etmək istəyirsən?

Lanq barmağı ilə Binqə Daonu göstərib hələ də gülməyinə davam edir. Binq Lanqın yaratmış olduğu təhlükə dolu səs-küyünə daha biganə qalmayıb yüksəkdən bağıraraq:

– Axmaq!!! Sənə dedim ki, gülmə, bura de-

yib-gülməyə gəlməmişik. Əgər ki, mundar ətinin canavarlara yem olmasını istəmirsənsə, onda sus. Başa düşdün? – deyib dodaqlarını gəmirir.

Lanq yerində sakit durub heç bir söz demir. O həddindən artıq məyus görsənir.Binq onun bu səssizliyindən əsəbiləşib yenə bağıraraq deyir:

– Eşitdin?!! Yoxsa kar olmusan, nədi?

Lanq asta səslə deyir:

– Bəli, eşitdim. Düz buyurursuz.

Binq yerə sərilib yuxuya getmiş Daoya baxıb sonda deyir:

– Bu sarsağı da oyat, bir yerdə çadırı qurun, səhərəcən istirahət edəcəyik. Axşamı burda qalıb görək canavar ulartısı eşidəcəyik, ya yox. Səs eşitdiyimiz anda həmin səs gələn tərəfə yol alaq.

Lanq hələ də Binqə baxır, Binq isə tapşırığın verdiyi halda Lanqın tərpənməyib ona maddım-maddım baxmağına əsəbləşib asta səslə deyir:

– Çatmadı dediklərim?

Lanq:

– Bu saat. Bu saat.

Lanq Daonun ayağı dolaşıb yerə yıxılmasına səbəb olan ağac kötüyünün üzərindən təşvişlə

atılıb, Daonun kürəyinə möhkəmdən yumruqlar vuraraq dedi:

– Ey Dao! Dao, oyan səni lənətə gələsən!!

Ancaq nə olsun Dao oyanmır. Lanq ağzını Daonun qulağına yaxınlaşdırıb aşağı səslə lakin yüksəkdən bağırırmış kimi qəzəblə qışqırdı:

– Mən səninlə deyiləm? Qalx ayağa, məsuliyyətsiz donuz balası!

Dao yenə oyanmır. Lanq arxaya çönüb baxır ki, görsün Binq neyləyir. Binq heç nə etmir! Yerə sərilmiş kötüyün üzərində oturub qəlyanını sümürür, bir sözlə o heç nəyə baş qoşmur. Burada hər şey Binqin əmrindən, Lanq və Daonun isə həmin əmri icra etməsindən asılıdır. Lanq Daonu bu şəkildə oyada bilməyəcəyini anlayaraq ayağa qalxıb sola-sağa baxır, arxaya çevrilib yenidən Binqi gözdən keçirib, sonra da sol ayağını astaca arxaya çəkib var gücü ilə yerdə yatılı vəziyyətdə olan Daonun sağ böyrünə qüvvətli zərbə endirir. Dao qalxmır. Zalımın balası necə yatıbsa, elə bil əbədiyyət yuxusuna gedib. Yaxşı, Lanq sol ayağını geri çəkərək güc yığıb yenidən Daonun böyrünə zərbə endirdi desək!? Gəlin boş-boşuna deməklə qalmayaq, çünki Lanq bunu doğrudan da etdi. Bəli, o yuxudan oyandı ancaq fəryad dolu bağırtıyla.

Dao bu saniyələr içərisində əziyyət çəkir, özü də necə? Çünki Lanq pəltək dostunun orqanizmində dərin yara açmışdı. Düzünü desək onun sağ böyrəyi Lanqın endirdiyi təpik zərbəsinin təsiri ilə partlamışdı. Binq oturduğu kötüyün üzərindən dik atılıb Daonun yanına qaçır. Narahat olduğundan yox, çığırtının təsirindən buraya yığışa biləcək canavarların qorxusundan. Binq əlini ağrıdan yerdə qıvrılan Daonun ağzına tutub dedi:

– Kəs, kəs, kəs səsini zibilə qalmış. Bu saat bizi məhv edəcəksən.

Dao bağırtısının, fəryadının, ağrısının pəncəsindən heç cürə çıxa bilmir, Binqin əlini bərk-bərk sıxır, sanki boğulur. Göz bəbəkləri dumanda batan Günəş təki yavaş-yavaş yoxa çıxmağa başlayır. Binq əlini tez Daonun ağzından çəkib, gözləri Daonun gözlərinə baxa-baxa donmuş halda Lanqa deyir:

– Nə oldu buna? Ona nə oldu Lanq? O elə bil öldü.

Lanq:

– Dao, sənə nə oldu? Dao, eşidirsən məni? – deyərək dostunu əzizləməyə başladı.

Əlbətdə ki, Binq Daoya nə olduğundan xəbərsiz idi. Ona endirilən ayaq zərbəsini yalnız o

ayağın sahibi bilir, o da bununla bağlı bir kəlmə də ağzını açmırdı. Lanq yerdə xırıltıları ilə can verən Daoya baxıb dərin təəssüf içərisində, şok olmuş halda dedir:

– Mən gördüm ki, o oyanmır – Lanqın sözü tamamlana bilmir. Dao öldü. Lanqın dodaqlarından çıxmaq istəyən, bu hadisəyə səbəbin nə olduğuna dair kəlmə də, elə o dodaqların arasındaca lal, kor edilir. Bəs cəsəd nə olsun? Onu dəfn etdilərmi? Çıxdıqları yola ikilikdə davam etdilərmi?

Yox cəsəd dəfn edilmədi. Binq Lanqa buna ayıracaq zamanlarının olmadığını, Daonu dəfn etsələr daha da yorulacaqlarını, cəsədi elə buradaca buraxmalı olacaqlarını bildirdi. Lanq inkar etsə də Binq imkan vermədi. Ani diqqətsizlik Lanqı həyatı boyu duymadığı, hiss etmədiyi duyğularla görüşdürmüşdü. Onun Dao üçün ürəyi yanır, gözləri dolur, onu yuxudan oyatmağa çalışdığı üçün ilk olaraq Binqi sonra da özünü günahlandırırdı. Ancaq əlbətdə ki, ən başlıcası belə hadisənin baş verməsinə səbəb Binqin özünü düşünməsi və yersiz inadkarlığı olmuşdu.

Gecə düşüb. Onlar indi yola birlikdə davam edirlər. Hər ikisi də həddindən ziyadə yorulub-

lar, ancaq Lanq Binqdən də artıq yorulub. Yol boyu Daonun ölümü, cəsədinin oradaca buraxılması, etdiyi səhlənkarlıq Lanqı yetərincə çeynəyirdi. Deməli onda heyvanlara zülm verməsinə baxmayaraq xırda da olsa insani vicdan var imiş. Nəhayət Binq ayaq saxlayaraq sükutu pozdu:

– Nə isə, dayanaq, görürəm sənin ağzını bıçaq açmır. Bayaqdan bir kəlmə də olsun danışmırsan. Burada dayansaq yaxşı olar, tez çadırı qur, yemək yeyib yataq!

Ax Binq! Əlini ağdan qaraya vurmur ki, vurmur. Nə yolçuluğu var nə də yoldaşlığı. Lanq ağzını açmadan sakitcə çadırı qurmağa başladı. Onun gözlərində dərin günah, günahın içində dibsiz bataqlıq və bu bataqlıqda da çabalayaraq boğulan peşmançılıq çırpınırdı. Daonun ölümünə səbəb olması onun yol boyu düşüncələrini şallaqlayır, ömründə ilk dəfədir ortaya çıxan ruhunu çiy yaralarla bəzəyirdi. Binq inciməsin, çünki Lanq bu dəfə ona qarşı demək istədiyi sözü açıq aşkar deyəcək. Üzünü Binqə tutub:

– Mən gedirəm! – dedi.

Binq:

– Nə edirsən? Nə edirsən?

Lanq:

– Dedim ki, gedirəm.

Binq tez Lanqın yanına gəlib sağ əlində yumruğunu düyünləyib astadan onun sinəsinə döyəcləyərək dedi:

– Lanq, sənin başın xarab olub, yoxsa bizə tapşırılan işi oyun sayırsan?

Lanq sinəsinə doğru döyəclənən əli tutub, gözlərini Binqin gözlərinə zilləyərək qətiyyətli şəkildə:

– Dedim ki, gedirəm, – deyir.

Qəribədir yəni Lanq bu qədərmi dəyişdi. Ona güc gəlib, nədi? Binq indiyə kimi əsəbi görmədiyi adamın, yeni tərəfini kəşf etmişdi. Tanıdığı gündən onun hər sözünə baş əyən insan indi baş qaldırıb. Bəs görən o, qorxdumu Lanqdan? Binq bayaqdan qəzəb fışqıran simasına mülayimlik qataraq dedi:

– Sakit, sakit. Sənə nə olub belə əsəbləşmisən. Mən Daonun da payın sənə verəcəyəm, özü də on beş min artıq.

Lanq hirslə dedi:

– Mənə gərək deyil, heç kimin payı. Mən burada bir dəqiqə də qalmaq istəmirəm. – Sözün bitirib arxasın Binqə çevirərək addımlamağa, getməyə başladı.

Gülməlidi, görən Binq indi neyləyəcək? Lanq gedir, gedir və dayanmır. Lanq doğrudanmı bu işdən əlini geri çəkdi? Birdən Binq ucadan yüksək səslə:

– Ey Lanq, bəlkə dayanasan! Məncə Daoya zərbə endirdiyin ayağının, gedəcəyin yolların uzun məsafələrini qət etməyə cürəti çatmaz. Birdə ki, səndən söz soruşuram, düşün ki, sən o qədər yolla addımlayaraq buralardan çıxdın, bəs sonra nə ilə, necə qayıdacaqsan, yaxşı qoy qayıtmağa imkanın, nəqliyyatın da olsun səncə mən Daonun sənin üzündən öldüyünü polisdən gizlədərəmmi? Heç vaxt! Mən məni yarı yolda qoyan səni əli qolu açıq gəzməyə qoymaram!

Lanq addımladığı yolu geri qayıdıb çaşqın sima ilə Binqə sual verdi:

– Deməli, sən hər şeyi bilirmişsən?

Binq kinayəli gülüşlə:

– Hə, ay axmaq, əlbətdə bilirəm. Səncə mən o qədər keyəm ki, sənin ayağınla Daoya endirdiyin zərbəni görməsəm də həmin zərbənin səsini eşitməyim? Mən özüm orada sənin üzərinə çox gəlmədim ki, qorxuya düşüb işimizi yarımçıq buraxmayasan. Lakin görürəm ki, sənin böyük cinayətinə, səfinə göz yumduqca daha da qudurur, daha da yolunu azırsan, mənim əlimi

tutursan, mənimlə qəzəbli danışırsan! Özün bil, qalıb burada mənə axıradək yardım etsən, törətmiş olduğun cinayətə göz yumacağam. Yox əgər hələdə mən gedəcəm, məndən əlini üz deyirsənsə bağışla: məndən günah getdi, – deyərəm. Hə, indi qərarın nədi? Gedirsən, ya qalırsan?

Lanq:

– Hə, qalıram, – deyib boynuna aldı.

Bəli Lanq qorxdu. Binq yenə hakimiyyəti əlinə aldı. Binq necə də hiyləgərdi. Kimin ağlına belə halda bu cür ecazkar fikir gələ bilərdi? Heç kimin! Deməli o hər şeyi başdan bilirmiş. Gəlin utanmayaq etiraf edək ki, Daonun ölüm səbəbini onun bilmədiyinə biz də inanmışdıq. O hər şeyi vəziyyətə görə dəyərləndirmişdi. Çox iyrənc insandır. Onun simasında insana bəlli olmayan pirat cild yanıb sönür. Hər şeyi özünə sərf edəcək şəkildə dəyərləndirmək, Binqin özünə görə doğrularıdı.

Lanq çadırı təmamilə hazır vəziyyətə gətirmiş, indi də yerdə qalan yükləri yəni ov ləvazimatlarını çadırın içərisinə yerləşdirməlidi. Lanq ov ləvazımatlarını çadırın içərisinə yerləşdirən zaman beynini bir sual qurcalayır. Özünün-özüylə daxilindəki söhbətləri, beynindəki tərəd-

düdlərin daha da artmasına səbəb olur. Yaxşı onda gəlin görək Lanqın beynini qurcalayan sual nəynən bağlıdı? Əlbətdəki, o Binqin burdan dönər-dönməz onu polisə şikayət etməsindən qorxur və tərəddüdlərə qapılırdı. Canavar ovundan əldə edəcəyi məbləğ onun vecinə belə deyildi. Lanq artıq Binqin ona pul verəcəyinə də inamla yanaşmır. Verməsin də! Burası bizi qətiyyən maraqlandırmaz, gəlin hekayəmizin axarını izliyək. Tək kəlmə də söhbət etmədən, onlara verilmiş konservdən yeyib yatdılar.

Yorğun gecənin yuxusu bir göz qırpında yumuldu və açıldı. Yatdıqları kimi də səhər yuxudan təşvişlə oyandılar. Təşvişə səbəb canavar ulartısı idi. Görəsən eşidilən ulartı hansı canavar dəstəsinin səsidi. Bunu bilmək olmaz. O vaxt eşidilən səsə aydınlıq gətirə bilərik ki, oda Binqin və Lanqın səs gələn yeri təyin etməsindən sonra bəlli olacaq. Lanq Binqə baxan yerdə, eşidilən ulartı səsinin təsirindən elə də qorxmurdu, bədəni titrəmirdi.

Binq təşviş içərisində əlləri ilə üz-gözünü ovuşdurur, gah irəli, gah da arxaya gedib gəlirdi. Ancaq elə də çox irəli getmir, sadəcə üç addım irəli üç addım da geri çəkilirdi. Sağ əliylə öz peysərindən bərk yapışıb, meşənin dərinliyinə

doğru təşvişlə zillənmiş olan gözlərini ani olaraq Lanqın gözlərinə tuşlayıb dedi:

– Bizə varlı gələcək vəd edən o ulu səsin ahəngdarlığını sən də eşidirsənmi?

O dəli olub nədi? Əminliklə sizə deyə bilərəm ki bu insan dəli olub. Rifahsızlıq sezilən simasında abartılı şəkildə səfeh, güləyən rifah da duyulur. Sanki bir tərəfdən bicliklə toxulmuş ağlı ona" geri dön" deyir, o biri tərəfdən isə girdaba bulanmış nəfsi duyulan ulartı səsinə tərəf "dayanmadan qaç" deyir. Canavarın ulartısına gəldikdə, ulartı dayanmadan davam edirdi. Binq gözlərini Lanqdan ayırmır. Lanq Binqin verdiyi suala cavab olaraq ağzını açmadan başını sallayıb ulartı səsini eşitdiyini sadəliklə ifadə edirdi. Əslinə qalsa, səsin Lanqa elə də qorxulu gəlməməsinə, sakitcə dayanmasına səbəb var. Daonun ölümündən iyirmi saat keçməsinə baxmayaraq o, Binqin üzündən özünü elə bil iyirmi ildir məhbəs yatan və o məhbəsdən qeyri aşkar qaçan dustaq kimi hiss edirdi. İyirmi ildir qaçan bu dustağın yerini, yurdunu isə yalnız və yalnız Binq bilirdi. Xülasə Binqin dodaqları arasında gizlənpaç oynayan "Daonu Lanq öldürüb" cümləsinin vahiməsini, uzaqdan duyulan canavar ulartısının vahiməsiylə müqayisəyə

qoysaq Lanqın birinci vahimədən daha çox dəhşətə gəldiyini görərik. Lakin qulaqları bürüyən canavar ulartısı Lanq üçün bir yandan da böyük ümüd vəd edir. Lanq düşünürdü ki, canavar ovu zamanı canavarlar Binqi parçalasa o ancaq həmin zaman Binq kimi şahiddən canını qurtara bilər. Əslində Lanq azadlığını itirməsi qorxusuyla bərabər, Daonun ölümünə səbəb olmasına da çox üzülüb, peşmançılq çəkir desək – yanılmarıq. O vicdan əzabı çəkirdi, o vicdanki onun izi-tozu indiyənəcən Lanqın daxilinə ayaq belə basmamışdı. Lakin neyləyə bilərik, Dao şanssız ölümə, Lanq da düşüncəsizliyə qurban getmişdi.

Binq tez meşənin seyrək yerində qurulmuş olan çadırın içərisinə daxil olub tüfəngini alaraq bayıra çıxdı və dedi:

– Nə durmusan, axmaq? Bəlkə tərpənəsən? Zirəng ol tüfənglə bərabər çantaları da götür gedək. Bu saat canavarın ulartısı dayanan kimi biz onun yerini təyin edib tapa bilmiyəcəyik.

Lanq dərin düşüncə ilə dinməz söyləməz halda Binqə baxır. Lanqın Binqdən qurtulmaq istədiyi aşkar haldır.

Lanq beş dəqiqə içərisində çadırı söküb belinə bağlayıb, ov ləvazimatları ilə dolu olan

bel çantasını da götürərək, ulartı səsinə qulaq vermiş Binqə heç bir söz deməyib yanından ötüb keçir. Binq onun yanına çatmağa gecikməməliydi. O tez sürətli addımlarla irəliləyib özünü Lanqa çatdırdıqdan sonra dedi:

– Bəlkə danışaq, hə? (Binq əlini Lanqın çiyninə qoyub deyir). İlk başda onu deyim ki, arxayın ol, səni ələ verməyəcəm. Axı biz yol yoldaşıyıq, gərək ki, yolda mehriban olaq. Belə baxanda nəyinki yol, hətda yolçuluqdan sonra da mehribançılığımız davam etməlidir.

Bu arada canavar səsi get-gedə daha da yaxından eşidilməyə başladı, Binq isə hələ də danışırdı. Onun Lanqa şirin dillər tökməsinin səbəbi məncə sizə də məlumdur. Əlbətdə ki, o canavarın səsindən ürkür ancaq buna baxmayaraq həmin qorxuyla onu canavarın səsinə yaxınlaşdıran ayaqları yox, nəfsiydi. Bəli, doğrudur Binqin özü qorxsa da nəfsi qorxmurdu. Gəlin qayıdaq hekayəmizi yarım buraxdığımız yerə. Binqə baxın hələ də danışır: Dostum, bəlkə asta addımlıyaq. Biz it səsinə tərəf yox, canavar səsinə tərəf gedirik – elə bu sözü demişdi ki, Lanq əliylə Binqin ağzından tutub özüylə bərabər ağac kollarının arasına sərdi. Binq çox çaşqındır, nəyin baş verdiyini anlamır. Lanq

gözlərin Binqin çaşqın gözlərinə dirəyib, barmağını öz dodağına dayayıb asta səslə sus deyərək kolluğun arasından sezilən, hələ ki, onlar üçün sayı bəlli olmayan canavar balalarını və diqqətlə ətrafı baxışdan keçirən və balalarını qoruyan canavara işarə edirdi. Təəsüf!! Min dəfələrlə, milyon dəfələrlə təəsüf. Bu canavar dişi Boz on ədəd körpə isə onunla Bozun balalarıydı. Binqlə Lanqın arasına sərilmiş olduqları sıx kolluqsa, Bozun ailəsi üçün düzəltmiş olduğu lağımdan təxminən on beş metrlik məsafədə yerləşən sarmaşıq ağac kollarıdır. Belə vəziyyətdə Lanqla Binq dişi bozdan daha güclü və əlverişli imkanlara sahibdirlər. Binq ağzını Lanqın qulağına dayayıb:

– Nə durmuşuq, gəl tüfənglə nişan alıb onu vuraq, – deyib əlini tüfənginə atır ki, Lanq əli ilə onun hərəkətinə mane olub, ağzını Binqin qulağına yaxın tutub astadan dedi:

– Sən nə danışırsan? Birdən ikiyə sən tüfəng atmısan?

Binq başını sola-sağa hərəkət etdirib dedir:

– Yox.

Lanq:

– Ay sağ ol! Heç mən də tüfəng ata bilmirəm. Tutalım ki, sən ya da mən ona nişan alıb, atəş

açdıq bəxtimiz gətirməyib, güllə də boşa çıxdı. İndi nə bilmək olar ki, gördüyümüz böyük canavar tək yaşayır, yoxsa sürüynən. Güllə də boşa getsin, fürsət də, canımız da. Bir də ayılıb görərik ki, önümüz arxamız canavar sürüsü ilə dairələnib. Yox, yox ehiyatlı olmalıyıq!!

Binq:

– Bəs onda neyniyək?

Lanq:

– Onu diri tutaq.

Binq:

– Sənin başın xarab olub o boyda canavarı diri tutmaq olar?!

Lanq dərin düşüncəyə dalaraq ağac kollarının arasından onların qaldıqları yerin sağını, solunu gözüylə süzə-süzə dedi:

– Olar.

Binq böyük qorxaqlığa və acizliyə qapılaraq dedir:

– Axı necə?

Lanq:

– Yol boyu özümlə daşıdığım bel çantamın içərisindəki dəmir tələlərlə!

Binq:

– Tələlərlə?

Lanq:

– Aha, tələlərlə. Biz buradan aralıda, buranı gözlə görə biləcəyimiz məsafədə dayanıb gecənin düşməsini gözləyəcəyik. Sən tən ortada qazılmış yuvanı görürsən?

Binq cəld həmin tərəfə nəzər salıb dedi:

– Aha, görürəm.

Lanq:

– Bax onu balaları ilə bərabər o yuvanın içərisinə girməsini gözləməliyik. Əgər sürü halında yaşamırsa! Təki yaşmasın! Çünki belə olan halda başqa fikir icad etməkdən savayı yolum yoxdu. Tələləri gecə vaxtı, bax bu sərildiyimiz kolluğun ətrafına düzəcəyik. Hər şey hazır olduqdan sonra kənara çəkilib, canavarın yuvadan çıxmasını gizlincə güdməliyik. Elə ki yuvadan çıxdı həmin an əlimizdə hazır saxlamış olacağımız daş parçalarından bir neçəsini tələ qurduğumuz kolluğun ətrafına atacığıq. Bir sözlə onu qurduğumuz tələyə qonaq çağıracayıq. Tələləri yerinə yerləşdirdikdən sonra işin çətini bitmiş sayılır, onu tələyə tərəf çağırmaq isə asan işdir. Çünki, onlar hər səsə büruzə verən heyvanlardır. Odur ki, hələ də bizim səsimizi, kolluğun şıqqıltısını eşitməyibsə, deməli biz xoşbəxtik. Ona görə də gəl astaca əlimiz, qolumuz sağ buradan qalxaq, yoxsa ətimizdən süzüləcək qan,

üzərinə sərildiyimiz kolluqların susuz kökünü bəsləyəcək.

Binq:

– Hə, hə, hə, qalxaq burdan özü də tez, – deyə ehtiyatla geri çəkildi.

Ay səni Binq yaman Lanqa qulaq asır. Deyəsən val dəyişib.

Tələlər quruldu. Bütün gecəni dişi Boz lağımdan çölə addımını belə atmadı.

VII

Quşların cingiltili səsi səhəri şirin yuxusundan oyadıb, günün qara pərdələri pəncərəsindən çəkilib, bol Günəşli işıq Terrai meşəliyini öz əhatəsinə alıb. Səhərin yenicə açılmasına baxmayaraq günəş ətrafı qaynar nəfəsiylə çoxdan isitməyə başlamışdı.

Səhərin xöşbəxtlik vəd edən işığının tam ortasında böyük bədbəxtçilik və gözə görünməz qaranlıq var. Bu qaranlıq lağımın qarşısında qəmgin vəziyyətdə oturmuş dişi bozun gözlərində yaşıyırdı. Dişi boz erkəyinin həsrətini çəkdiyini hər halından bəlli edirdi. Budur, indi onun yanına balaları toplaşırlar. Lağımdan öz başlarına sərbəst çıxmaq, artıq onlar üçün asan

görsənir. Onlar balaca şirin şeytanlara bənzəyirlər. Körpə uşaqların simasında sezilən məsumluq var onların simasında. Dişi Bozun simasında isə dərin kədər hökm sürməkdədir.Elə bilin ki onun üçün erkəyi olmadan canlı təbiət cansızlaşıb. Elə bilin ki, deyən də elə həqiqətən də belədir.

Lağıma yaxın olan kolluqlara tərəf daş parçaları atılmağa başladı. Eşidilən səslər Dişi bozu yerindən qalxmağa və ətrafı diqqətnən baxışdan keçirməyə vadar etdi. Kolluqların arasına daşların atılması davam edirdi. Nəhayət, mərdimazar Lanq və Binq öz arzularına çatırlar, çünki dişi boz onu narahat edən bu səs küyə laqeyd qala bilmir. O sakit addımlarla lağımı dairə şəklində əhatə edən ağaclığa yaxınlaşmağa başlayır. Bu arada körpə canavar balalarından biri ana bozun hərəkətlərini çox diqqətnən süzür. Lağımın ətrafında nəyinsə baş verdiyini deyəsən balaca küçükdə anlamağa başlayıb yerdə qalan beş bala isə bir birini dişləyib boğmaqla məşquldurlar. Dişi Boz daha da yaxınlaşır. Ağaclığın və kolluqların arası diqqətlə nəzərdən keçirildikdən sonra o daha da dərinliyə doğru irəliləyir. Ani hərəktlə addımların saxlayıb çoxda dərinliyinə girmədiyi ağac və

kolluqların arasından arxaya çönüb dərin diqqətlə balalarına baxıb girdiyi ağaclıqdan sol tərəfə dönərək asta addımlarla yenidən irəliləməyə başlayır. O ağaclığın arasında irəliləyir, irəliləyir yenə də irəliləyir. Balalarından biri isə hələ də diqqətini anasından ayırmayıb. Dişi Boz lağımnan üzbəüz dayanan ağac və kolluqların arasıyla sola doğru addımlayır. Yəqin ki, lağımı dairə şəklində əhatə edən ağac və kolluqların hamısının arasına diqqətlə baxış keçirməyə qərarlıdı. İrəliləyir, irəliləyir. Lağımın arxa tərəfinə doğru çatmasına az qalıb. Lakin hələ də onun qarşısına heç bir maneə çıxmayıb. O yenə addımlayır. Axı dişi Boz eşitmiş olduğu səsküyə niyə belə ciddi yanaşır? Yenidən lağıma qayıtsa nə olar ki? Sizədə elə gəlmirmi ki, dişi boz erkəyinin ona əmanət etmiş olduğu ailəni, yuvanı qorumaqla öhdəçiliyinə düşmüş olan işi düzgün icra etməyə çalışır? Bəlkə də həyatı boyu heç kəs onun heyvan kimi daxilində daşıdığı bəzi prinpsipləri, məsuliyyətləri dərk edə bilməz. Ancaq tükü tükdən seçən bu canavar növü bəzi hərəkətləri ilə sanki ətrafa sadiqliyini, əsl sevginin, mərdliyin, qorxmazlığın, vəfalılığın olmayan elementlərini səpələyir.

Artıq lağım ətrafı dairə yavaş-yavaş qapan-

mağa başlayır. O lağımın qarşısındakı ağac və kolluqların solu ilə hərəkət edib, addımlamağa başladığı ilk nöqtəyə yaxınlaşır. İlahi o qəflətən necə də fəryadnan zingildəyir!! Fəryadı əminəm ki, sənədi, Tanrım!!

Bəli dişi Boz artıq tələlərin möhkəm pərçimlənmiş caynaqlarının ona bəxş etmiş olduğu can ağrısının iztirabları ilə baş-başadır. Dəmirdən hazırlanıb yerə yan-yana düzülmüş tələlərin hamısı, dişi Bozun ön və arxa ayaqlarını parça-parça edib. O çox cansız görsənir. Tələlərin üzəri dişi Bozun qanıyla rənglənib. Yaralı canlının tək işi gözlərini göyə zilləyib, onu göy səmalardan səbrlə izləyən Tanrısına ümüd ilə inildəməsidi. Tələlərin arasında çeynənən ön və arxa ayaqlarının sümükləri öz ətini yarıb çıxıb. Hər tərpənişində qabaqdan sol ayağı ətindən qopacaqmış kimi hiss bağışlayır. Elə bu anda bayaqdan anasını diqqətlə izləyən balalarından biri ağaclığın içərisinə doğru irəliləyir. Onsuz da çəlimsiz körpə öz qardaş-bacılarından fərqli olaraq anası ağaclığın içərisinə hərəkət etdiyi andan nəsə pis hadisənin baş verəcəyini hiss etmişdi. Ayaqları dolaşa-dolaşa kolluqların arasından keçib güc bəla ilə anasının olduğu nöqtəyə çatır. On balanın içərisindən yalnız

birinin, anasını bayaqdan diqqətnən izləməsi yeganə sualı beynimizdə formalaşdıra bilər. Gerçəkdənmi o anasının başına hər hansısa pis hadisənin gələcəyini öz körpə hisləri ilə duya bilmişdi?! Bir az və yaxud da tərəddüdlü cümlə kimi oxunmuş olsa da, lakin həqiqət belədir. Bir ayı tamam olmayan canavar balası dişi Bozun yanına çatar çatmaz açılmış tələlərin üzərinə boya kimi yayılmış qanı qoxlamağa başlayır. Dişi Boz isə bunu görər görməz onu zəlil günə salmış tələlərin, balasına də hər hansısa bəla gətirəcəyini düşündüyündən zarıltısını kənara buraxıb, dişlərini qıcayıb mırıldanaraq işə düşmüş tələlərin yenidən işə düşə biləcəyini düşünür. Nə yazıq ki, tələlərin dördü də dişi qəhrəmanımızın ayaqlarını çeyniyərək parçalamışdı. Belə vəziyyətdə onun bu cür düşünməsinə haqq verə bilərik. Düşünməyək ki, yalnız insanların qadın cinsinin ruhu analıq hissləri ilə zəngindir. Analıq hissi həmçinin də canlı aləmin fərdi sayılan heyvanlara da xas xüsusiyyətlərdəndir.

Təbii ki, bala canavar anasının nə ima etdiyini anlamır, elə hey öz bildiyini davam etdirir. Kaş haqqında bəhs etdiyim bala canavar anasının çatdırmaq istədiyi buyruğu həyata

keçirə. Bu sözlərimə səbəb isə ondan təxminən iki metr aralıda dayanıb onları izləyən Binq ilə Lanqın o vaxt orada peyda olmasıdı.

Binqi uzaqdan görmək ruh halının necə qorxu ilə bəzənməsini bilməyə yetərincə bəs edər. Hal-hazırda o düşdüyü vəziyyətdə iki şeyi fikirləşir. Bu fikrin birincisi; "Aman ALLAH mən nə edirəm? Canavarmı ovlayıram? Mən ağlımı itirmişəm?" - sözüdür. İkinci fikri isə: "Onun zəlil canavardan elə də böyük fərqi yoxdur, niyə də onu ovlayıb varlı olmayım ki?" - sözünü daxilində olmayan vicdanına, qəlbinə pıçıldamasından ibarətdir. Bəs Lanq? O indi nə düşünür? O yalnızca bu oyunu axıracan sürdürməli olacağının əlacsızlığını özünə izah etməyə çalışır. Canavarın Binqi parçalaması fikri artıq puça çıxmışdı. Yaxşı, əgər o doğrudan da Binqin canavar tərəfindən öldürülməsini istəyib, arzulayırdısa, onda niyə Binqin tüfəng tanımaz əli ilə canavara güllə atmasının qarşısını alıb bu cür tələ qurdu? Səbəb nə idi? Ona görə ki, əgər Binq canavara atəş açsaydı, güllə də canavarın vücüduna təmas etməsəydi, nəticədə həmin an, Lanq da Binqlə bərabər təhlükə altına düşmüş olacağdı. Birdə ki, axı onlar canavarın sürü ilə yaşayıb yaşamadıqları-

na əmin deyildilər.

Nəhayət Binq həyacandan qurumuş dodaqlarını yalayıb, titrək səslə sözə başlayır:

– İndi neynəyək?! Planımız baş tutdu, Lanq! Sən ağıllı adamsan, planın davamını da de ki, tez bu işə nöqtə qoyaq.

Lanq ilk öncə gözləri ilə lağımı diqqətdən süzüb ardınca da baxışlarını ayaqları tələdə parçalanmış olan dişi Boz ilə balasına zilləyib, əlindəki tüfəngin arxasını yerə dirəyərək, onun lüləyindən əlləri ilə bərk-bərk yapışıb deyir:

– Tüfəngnən onun başından vuracağam!!

Lanqdan asılı vəziyyətə düşmüş Binq alçaqdan gülərək ona yaltaqnaraq:

– Hə!! Ha-ha-ha, ay səni, Lanq. Sən necə də çox bilmişsən, onu yerdə zəlil düşmüş halda gülləylə vurub, sonra da deyəcəksən ki, sən yaxşı tüfəng atansan hə?! Amma olsun sən de. Sən güclü qəssab olmağınla bərabər həm də güclü ovçusan Lanq! Atəş aç vur, o mundar canavarı.

Lanq Binqin üzünə belə baxmır, gözü Dişi Boza və yanında bayaqdan hərlənən balasına zillənib. Gözlərini onlardan ayırmayan Lanq dedi:

– Demişdim axı sənə, atəş açılmayacaq. Hər

şey sakit həll olunacaq.

Binq təəcüblə:

– Atəş açmayacaqsan? Bəs yaxşı onda necə öldürəcəksən?

Lanq əlindəki tüfəngin lüləyindən bərk yapışıb, tüfəngin arxa hissəsini göyə qaldıraraq üzü dişi Boza tərəf addımlamağa başlayır. Lanqın yaxınlaşmasını ilk görən körpə küçük oldu. Gözlərini təəccüblə uzaqdan gələn, ona yad olan quruluşa malik ilk dəfə gördüyü insana – Lanqa zillədi. Lanq qət etdiyi məsafəyə son addımını atdı. Ayaqları tələ arasında parçalanan Dişi Boz boynun arxaya çevirir. Bu anda ortadan bölünüb qopmağa hazır olan sol ayağı boynun arxaya çevirmək istədiyindən bir azca da ətindən ayrılır və Lanqı görər-görməz zingildəməyə başladı. O necə də əziyyətə, zülmə qərq olub. Elə zənn edir ki, Lanq onun yardımına gəlib. Lanq təxminən üç saniyə dişi Boza baxdıqdan sonra lüləyindən yapışdığı tüfəngi göyə qaldırıb, ardınca da altı dəfə arxa-arxaya onun başına güclü zərbələr endirir. Dişi boz ilk üç zərbədə mırıldansa da artıq altıncı zərbədə səsi kəsilmişdi. Lanq yorğun düşüb silahı əlindən boşluğa buraxdı. Yaşıllıqda oturub əllərini qatlanmış dizlərinin üzərinə qoyub, gözlərini yerdə

iki saniyədən bir tərpənən, yəni can verən Dişi Bozun gözlərinə zillədi. Dişi Bozun gözlərindən Lanqın gözlərinə süzülən baxışlar və o baxışların dərinliyindəki məyusluq vəhşi insanın yoxsul vicdanını parçalara bölür, asta asta gözlərinə yaxınlaşan ölüm dumanı isə təbiətin gur işığını böyük odun yaxasından səpələnən qığılcım dənələri tək nəfəs dərmədən kəsib doğradı. Dişi Boz can verdikcə Lanqın daxilində cisminə sığmayacaq dərəcədə ruh dirçəlməyə başladı. Yaratdığı vəhşiliyin nəticəsi onu utandırırdı. Lanq əlindən gələ biləcək bütün vəhşiliklərin zəhərli meyvələrini dişi Bozun sağlam bədəni üzərinə aşırmış, o meyvələrin toxumu, üzərinə aşmış olduğu canlının bədənində təlafisi ola bilməyəcək yaralar peyda etmişdi.

Dişi Boz can verirdi. Onun can verməsi başının hər saniyədən bir diksinmiş halda tərpənməsindən bəlli idi. Gözlərini açıq tutub, yalnız bir nöqtəyə baxır. Bu nöqtə Lanqın gözləriydi. Lanqın də gözləri onun gözlərinə baxırdı. Lakin Dişi Bozun gözlərindən sürüşüb Lanqın gözlərinə yuvarlanan baxış daha ürək parçalayıcıydı. Bir neçə dəqiqə öncə bu adamın yaxınlaşdığını görmüş olan heyvan elə zənn etmişdi ki, onu bu çətin vəziyyətdən qurtacaq xilaskarıdır gələn.

Təəsüf ki, belə olmadı. Kor-peşman olan Lanq xəyal qırıqlığının və inamın canavarın gözlərini necə göynətdiyini çox gözəl anlamağa başladı. Əksəriyyət insanların ehtiyat edib, vəhşi adlandırdıqları canavar onlardan birinə güvənmiş, lakin həmin insan o güvəni puç etmişdi. Ax Tanrım! Necə də acınacaqlı durumdur! Lanq təkrar səf etmişdi sanki, Dao dirilmiş, o isə Daonu yenidən öldürmüşdü. Canavarın güvən dolu baxışlarını yerində anlamaması Lanqın on dəqiqədən sonra ayrı insana çevrilməsinə, daxilində ruhun dirçəlməsinə, vicdanının ona bəsdir deməsinə şərait yaratmışdı. Sizcə bu gec deyildimi?

Ətrafa sakitçilik çökmüşdü. Sakitçiliyin içərisindən bayaqdan anasının həndəvərindən ayrılmaq bilməyən bala canavarın yalnız sızıltılı səsləri duyulurdu. Bir səs də eşdilir, Lanqın gözlərinə qandallanmış dişi Bozun arabir tərpənən başına dayanmadan endirilən ayaq zərbələrinin səsləri. Nəhayət belə vəhşilik nifrət dolu cümlə və qəhqəhələrlə son bulur :

Binq:

– Öl də, mundar heyvan!!! Ha-ha-ha-ha-ha-ha-ha. Ey Lanq, dayanmaq zamanı deyil, qalx küçükləri torbaya dolduraq ha-ha-ha-ha-ha, o

necə də qorxaq kimi öldü, a-ha-ha-ha-ha-ha!!

Vəhşətin üstünlük təşkil etdiyi hekayəmizin bu yerində icazənizlə dahi filosof Fridrix Nitsşe bir söz demək istəyir: "İnsan qəhqəhələrlə güldüyü zaman, kobudluğu ilə bütün heyvanları geridə buraxar" – ey dahi insan, sən necə də düzgün söylədin.

Dişi Boz öldü!!! Yaralı cismini fani dünyaya pay verib onun xilasına yetişəcəyini düşündüyü Tanrı bəndəsinin vəhşiliyindən kiçik bir parça gözlərinə sıxaraq sonsuzluğa əbədi göz yumdu. Bəs Boz? Görəsən salamat və tamam qoyub getdiyi ailəsinin dağılmış, parçalanmış, natamam vəziyyətə salınmış yoxluqlarının necə fərqinə varacaq? Yaxud da fərqinə vardığı anda, həmin saniyədən etibarən sonrakı həyatı necə formalaşmağa başlayacaq? Yəni doğrudanmı əksəriyyət insanlar böyük kainata yalnız özlərinin lazım olduğunu, yaxud da yeganə canlının özlərinin olduqlarını, hiss deyilən şeyin təkcə onlara aid olduğunu düşünürlər?! Doğrudanmı ALLAHIN xəlq etmiş olduğu canlıların içərisindəki ən vəhşisi insanların içərisindən çıxan bəzi "insancığazların" məhz özləridi?! Baş verən bütün hadisələr bu suala: "bəli, insan – ən vəhşi canlıdır" – deməyə şərait yaradan ən qor-

xulu dəlildir. Əlbətdəki yuxarıda dediyimiz kimi danışdıqlarımızı cəmi insan aləminə aid etmək olmaz. Mərhəmətə gedən yolun xəritəsi insan ruhunun dərinliklərində gizlənib, o yolun düzgün xəritəsini əldə etmək üçün isə gərəkdi ki, daxilində gizlənən, gözə görünməz ruha cismin qədər toxunub hiss etməyi bacarasan.

Bəli, heyvan vəhşi ola bilər, lakin söylədiyimiz vəhşiliyi şüurdan mənn edilmiş canlının şüursuzluğu kimi dəyərləndirsək ədalətli qərar çıxarmış olarıq. Yaxşı onda insan?

Hamımıza məlumdur ki, insan canlı olaraq yaradılışından gün, ay, il, əsr ötdükcə daha da püxtələşmə, özü üçün rahat yaşam tərzi təşkil etmə, oxuma, yazma, sayma, həmçinin də bir sıra elmləri yaratma və yaratmış olduğu elmlərə yiyələnib implus kimi bir-birinə ötürmə imkanlarına malikdir. İnsan sahib olduğu imkanlarının hər gün daha da artığına yiyələnmə, bilmə gücü ilə təchiz olunub. Lakin heyvanlar yaradılışlarından bəri nə cür ov edirlərsə, əti necə çiy yeyirlərsə, bir-birilərinə necə hücüm çəkib parçalıyırlarsa, eyniylə bu cür də dəyişmədən həyatlarına davam edirlər. Onda bəsit sadalayışımızın ardından dodaqlarda tək söz hasil olmalıdır ki, o da "insan bu kainatın ən şüurlu vəhşi-

sidir". Əslində isə insan yalnız şüuruna yaraşan tərzdə nəvazişli, xeyirxaq, acımasız həyat sürməlidir. Yaradılışın. həmçinin də canlı aləmin şahı sayılan insan – bioloji növ kimi fiziki antropalogiyanın təhqiqat obyektidir. İnsan nə etsə də, onun təbiəti və mahiyyəti həm fəlsəfi, həm də dini müzakirə obyektidir. Buna görə də özünü sözün həqiqi mənasında insan adlandıran hər kəs mənəvi keyfiyyəti ilə kainatda vəhdət təşkil etməyə borcludur. Görəsən biz insanlar hamımız bir nəfər kimi ömür sürdüyümüz kainatda, cəmiyyətdə, sosial həyatımızda heyvanların rolunun nədən ibarət olduğunu bilirikmi?

Heyvanlar canlı təbiətin sanitarlarıdırlar. Təbiəti bizim qoruduğumuzdan da artıq qoruyurlar. Məsələn: Ucu bucağı bilinməyən vadinin mərkəzində hər hansısa xəstəlikdən ölüb qalmış Zebranın cəsədini insan təbiətdən tez təmizliyə bilər, yoxsa həmin vadidə günlərlə ac qalmış aslan? Heç şübhə yoxdur ki, bunu arslan daha tez edə bilər. Aslan iylənmək üzrə olan cəsədi məhv etməklə bioloji aləmi sıfır tam onda bir faizlik bəladan xilas etdimi? Bəli etdi. Bu kimi bir sıra şeyləri, bitki qalıqlarını yeməklə, həmçinin su heyvanları suyu təmizləməklə təbiətdəki öz sanitar fəaliyyətlərini Tanrının onlara

buyurduğu kimi bir-birindən fərqlənmədən icra edirlər. Uca Yaradan tərəfindən pinti yaradılmış donuz öz həyat tərzini elə pinti olaraq da sürdürür. Yaxud da pişik küçədə yeridiyi an ağaclardan birinin qırağına nəcisini ifraz edir, bəs sonra nə edir? Tanrısının ona bəxş etdiyi mədəniyyəti şərti refleks halında da olsa, həyata keçirməyə başlayır, yəni ağac dibinə ifraz etdiyi sidiyin, ya da nəcisin üzərini torpaqla örtməyə başlayır. Onda gəlin üzümüzü pişiyi şüursuz adlandırıb, onu heyvan olduğuna görə ciddiyə almayan bəzi insanlara tutub sual edək. Ey şüurdan dəm vuran insanlar siz niyə ayaq yoluna girib nəcisinizi ifraz etdikdən sonra onu aradan yox edib, təmizləməyi özünüzə əziyyət bilirsiniz?

Düşünək ki, qaranlıq günlərdən birində təktənha yolda yeriyən insan bərk qarın ağrısına düçar olur. Ətrafda ayaq yolu tapmadığından nəticədə özünü agaclığın yanına verib nəcis ifraz edir. Qarnının ağrısı keçəndən, rahatlaşandan sonra da yoluna davam edir, ancaq nə yazıq ki bu mərifətsizlikdən həmən sonra təbiətin və mədəniyyətin qarın ağrısı baş qaldırır. Deməli insanın şüursuz saydığı heyvan Tanrısının ona bəxş etdiyi reflekslərə sadiq qalmaqla, şüurlu

yaradılmış bəzi insanlardan daha çox ətrafa mədəniyyət işığı saçır. Utanılası haldır! Lakin utanmaları gərəkən bəzi insanlar hələ də utanmamağı özlərinə eyib bilmirlər. Dişi Bozu da məhv edib, şüursuz olduğunu zənn edərək ağır zülümlərə qərq edənlər danışdığımız belə insanlardandırlar.

VIII

Bozun böyük diqqətlə, sevgiylə, mərdliklə qurmuş olduğu ailəsi namərdliklə talan edilmişdi, yazıq Boz isə başına gələn bədbəxtçilklərdən tamamilə xəbərsizdir. Həm də onun başı indi başqa düşüncələrini həyata keçirtməyə qarışıb.

Boz xeyli əsəbiləşib. Ceyranın leşinini Qanaq çayı ətrafından dişləri arasında sürütləyərək gətirmək onu əməlli başlıca yorub. Yorulmalıdı da!! Dörd gün ov axtarışı, ovu tapdıqdan sonra isə iki gündə geriyə qayıtmaq əziyyəti, özü də ov dişlərinin arasında. Onun yorulmasına bu qədər səbəblər sizcə bəs etməzmi?

Aclıq da Bozu birtəhər edib, ancaq o altı gün ac qala bilməzdi. Ona görə də ceyranı dişlərinin arasına keçirər-keçirtməz onun bədəninin bəzi nahiyələrindən mədəsini tam doldurmayacaq

qədər dişdəklər almışdı. Dörd günlük şikarsızlıq Bozu necə çətinliyə salmışdısa, ürəy edib ailəsinə aparacağı ceyranın ətindən dolu qarın yeməmişdi. Düzdür qarnını azacıq da olsa, yeməklə tox saxlamağı bacarıb, lakin gözlərinin yuxusunu, ayaqlarının taqətini qoruyub saxlaya bilməyib. Dişisinə, balalarına qarşı duyduğu ülvi məhəbbət yol boyu onu dayanmamağa məcbur edir. Nepalın şimalına doğru Terrai meşəliyində dişisi və küçükləri üçün düzəltmiş olduğu lağımın ətəyinə özünü yetirməyə dəqiqələr qalır. O, çox səbirsiz, taqətsiz görsənsə də ailəsinin yanına gəlib çatma sevinci bitib tükənmiş fiziki gücündən daha əzmli, daha qüdrətli görsənirdi. Boz lağıma qədərki məsafəyə çatmadan səbr etməyərək dişlərinin arasındakı ceyranın parçalanmış leşini torpağın üzərinə buraxıb ucadan ulamağa başlayır. Ulayayırdı ki, Dişi Bozu onu duysun, səsinə səs versin, erkəyinin qarşısına qaçsın. O ulayır, ulayır, uluyur. Bozun gözlərində alovlu bəklənti, özləm və böyük sevgi atəşi qalanıb. Atəşli sevginin odunda qızınanların isə nə yazıq ki səsi də gəlmir. Necə ola bilərdi ki, dişisi Bozun özləmini çəkməsin, onun səsini duyub, səsinə səs verməsin? Yalnız nə etmək olardı, onlar yox-

durlar. Boz ailəsini qoyub getdiyi lağımdan onu təxminən iyirmi metr uzaq tutan məsafəni ətrafı müşahidə edərək asta addımlarla qət etməyə başlayır. Saniyələr keçdikcə qulaqları yuvasına çökmüş sükutun səssizliyini yavaş-yavaş duymağa başlayır. Asta addımlarla ailəsi üçün düzəltmiş olduğu lağımın içərisinə daxil olur.

Budur üç saniyə çəkmir Boz lağımın çölündədir, özü də təşvişli halda. Sanki faciəvi bədbəxtçiliyin baş verdiyindən tamamilə əmin olub. O burnunu torpağa yaxınlaşdırıb yeri qoxlayaraq hərəkət etməyə başlayır. Deyəsən torpağı qoxlayaraq ailəsinin iyini alacaq.

Elə düzgün qoxu alır ki, həmin qoxu onu Dişi Boz tələyə düşməzdən öncə daxil olduğu kolluğun və ağaclığın arasına doğru aparır, o da eynən dişisinin hərəkət etdiyi istiqamətdə addımlamağa başlayır. Bir neçə saniyə keçir. Budur aram-aram torpaqdan aldığı qoxu onu dişisinin qanına bələnmiş tələ, həmçinin tələnin dişləri arasında parçalanaraq ilişib qalan, sonra da qopan ayağıyla üzləşdirir. Bəli, bu qana bulanmış ayaq onun dişisinin ayağıdır. Həmin ayaq ki, hər tərpənişdə parçalanmış ətindən daha da aralanırdı. Tələ üzərindəki qan və tələnin dişləri arasında qalan ayaq parçası da Bozun qəbul edə bilmə-

yəcəyi həqiqətlərdir. O burnunu tələyə dirəyib tələnin üzərindəki qanı iylədikdən sonra, sanki fəryad çəkirmiş kimi əvvəlki ulamaqlarından, hətta lağıma yaxın olarkən uladığı sevincli tərzindən tam fərqli, acı-acı bir ulamaq ulayır.

Gözlərini yenidən tələyə zilləyir. bəli bu doğrudan da onun dişisinin ayağının parçası, həmin parçanı və ətrafı süslüyən qanı isə insanlığın vəhşilik portreti kimi üzərində daşıyan tələydi. Boz gördüyü faciənin ürək ağrıdıcı sübutları qarşısında cılızlaşır, tələnin ətrafında dəli olmuş vəziyyətdə dövrə vuraraq zingildəyir. Zingildəməyin sürdürərək diliylə dişisinin tələ dişləri arasında parçalanmış ayağının qopmuş parçasını gah yalayır, gah da qoxlayır. O necə də çarəsiz görsənir, elə bil böyük peşmançılıq hissi duyur. Həqiqətdə Boz özü burada olmuş olsaydı, nəyin bahasına da olsa, belə hadisələr baş verməyəcəkdi. Ancaq indi hər şey, bütün baş verməyəcəklərinin əksinə işləyir.

IX

Səhərki Günəş öz pərdəsini sona qədər çəkib, yerini buludlara verib, ardınca da yağış yağmağa başlayır. Mümkün deyildi ki, baş verənlə-

rə göylər ağlamasın. Yaz yağışı təravətli meşə torpağının üzərində gəzişir. Onların isə üzərində Binqlə Lanq.

Dişi Bozun cəsədi parçalanmış kağız təəsüratı bağışlayırdı. Arxadan sağ ayağı aşağı hissədən qopmuş, qabaq ayaqlarıyla arxa sol ayağının əti altındakı qırıq sümükləri isə bir-birindən aralandıqlarını bir mənalı şəkildə ifadə edirlər. Bu arada Binq də boş dayanmayıb. İçi on ədəd canavar balası ilə dolu iki ayrı çuvalı çiynində daşıyır. Körpə canlıların çuval içərisindən eşidilən səsləri əməlli başlıca ətrafı bürüyüb. Ətrafı bürümüş olan balaların səsləri Binqin çuvala endirmiş olduğu zərbələrin təsirindən kəsilir. Elə də çox yol qət etməyiblər, ancaq məlumdur ki, onlar canavar balalarını və dişi bozun leşini aparmalı olacaqları yerə çatdırmalıdırlar, ondan sonrasını da Tanrı bilər, nə baş verəcək.

Binq addımların saxlayıb ağzı bağlı çuvalları çiynindən yerə qoyub, səfeh-səfeh gülməyə başlayır. Binqin ayaq saxladığını görən Lanq da boynundakı canavar cəsədini yerə atıb, arxasınca isə belinə bağlamış olduğu çadır çantasını yerə buraxır. Yağış artıq dayanıb. Lanq yerə buraxmış olduğu bükülü çadır çantasının üzərində oturur. Binq hələ də səfeh-səfeh gülməyi-

nə davam edirdi. Lanq oturduğu istiqamətdən boynunu arxaya çevirib, ətrafa göz gəzdirər-gəzdirməz Binqə:

– Maşını harada saxladığımız dəqiq yadında qalıb?

Binq Lanqın verdiyi sualdan elə bil qıdıqlanmağa başlayır, nəticədə şaqqanaq çəkərək gülməyi hər tərəfə yayılır, sonra gülüşlərinin hərarətini azaldaraq Lanqa yaxınlaşıb onun oturduğu istiqamətə əyilib, sağ əlini onun sol çiyninə qoyub dillənir:

– Sənin düşüncə tərzin mənim çox xoşuma gəlir, Lanq! Amma, bu həmişə belə davam etmir, yalnız bunu deyə bilərəm ki, sən bacarıqsız Daodan daha zirəng, daha peşəkar və qat-qat güclü birisən.

Lanq dərin diqqətlə Binqin ağzından çıxan sözləri izləyir.

– Lanq, sən qəti olaraq Daonun ölümüylə bağlı özünü günahlandırma, qoy onun ruhu xöşbəxt olsun ki, o sənin kimi bacarıqlı, düşüncəli hər çətin vəziyyətdən çıxış yolu tapa bilən kişinin zarafatının qurbanı olub. Tanrı özü onu bizimlə getdiyi bu şərəfli yola layiq bilmədi. Sən də əmin ola bilərsən ki, mən sənin kimi ortağımı əbədiyyən sata bilmərəm. Sənin dü-

şüncə tərzin mənim çox xoşuma gəlir – "həmişə belə davam etmir" deməyimə də səbəb var. Bax, sən axı maşını harada saxlamağımızla nə səbəbə maraqlanırsan?!

Lanq oturduğu çadır çantasının üzərindən qalxıb şübhəli baxışlarla Binqə baxaraq dillənir:

– Necə yəni niyə maraqlanıram? Sənin qurduğun planın canavar ovu həyata keçmədimi? Bu ürək sıxıcı meşədə keşməkeşli saniyələr bitmədimi?

Binq əllərini şalvarının ciblərinə salıb:

– Ax Lanq, Lanq, deyirsən indi biz dostum Ken-Zhinin tapşırdığı şeyləri sayından az aparaq?

Lanq:

– Nəyi az aparırıq? ona lazım olan şey canavar balalarıydı, onu da bəxtindən rahatçılıqla tutdun, hələ üstəlik dostunun o qədər də vacib deyil dediyi canavarı da ovladın. Bəs deyil sənə?

Binq:

– Mənə yox, bizə bəs deyil.

Lanq:

– Çox sağ ol, mənə bəs edər.

Binq:

– Lanq, əgər mənə bəs deyilsə, sənə də bəs

olmayacaq. Fikrimi başqa cür də ifadə edə bilərəm. Mənə davam etdirmək istədiyim işdə yardım etməsən, mənim sənin haqqındakı fikirlərim əsaslı şəkildə dəyişə bilər.

Lanq Binqin nəyə işarə etdiyini çox gözəl anladı. O sirrini paylaşa bilməyəcəyi cinayətə mübtəla olduğu üçün özünü bağışlaya bilmir. Bunun da üzərinə dişi Bozun, onun gəlişinə bəslədiyi ümidli baxışının iztirabı da əklənmişdi. Bu baxış indiyənə qədər onun heyvanlara qarşı duymadığı, görmədiyi, yaşamadığı naməlum hislərin təhliliydi. Heyvana məxsus həmin gözlərdəki baxış, Lanqın ruhunun dərinliyindən eşidilən çığırtıların lərzəsinə çevrilmişdi. Lakin Binqə bu məsələlər o qədər də vacib deyildi.

Lanq nifrətlə Binqdən sözünün davamını gətirməsini tələb edir.

– Fikrini de! İyrəncliyivi davam edir.

Binq əsəbə toxunacaq şəkildə gülərək sözünə davam edir:

– Sən bilirsən ki, bizim yaxaladığımız canavar balaları adi canavar növündən deyillər? Hələ bir yerdə yatan canavarın növünə diqqət yetir. Bu Boz Qurd canavarıdır. Nadir hallarda görünən canavar növüdürlər. Bunlar haqqında az da olsa eşitmişəm. Boz Qurd canavarları türk

mənşəli ölkələrdə hörmətlə anılırlar. Boz qurd türkləri adlanan siyasi birliyin və həmin siyasi birliyin adlarına uyğun işarələrinin olduğunu eşitmişəm. Bu heyvana ən əsas türk mənşəli ölkələrdə hörmətlə yanaşırlar, səbəbi isə Boz Qurdun onlar üçün azadlıqlarının, cəsarətlərinin simvolu kimi bilinməsidir.

Lanq:

– Hə, indi nə olsun ki? Sənin danışdıqlarının bizim burada qalmağımıza nə dəxli?

Binq:

– Anlamadın deyəsən! Ken-Zhi cənabları bizdən adi canavar balaları istəmişdi, bizsə onun ən möhtəşəm növünü, özü də on ədəd balasını diri yaxalamışıq. Təbii ki, o bunu görərgörməz açdığı canavar fermasından düşündüyündən də artıq pul götürə biləcəyinin həmən fərqinə varacaq. Bəs biz onda nə üçün burada iki gün də artıq qalıb, Ken Zhi cənabları üçün ovladığımız növdə canavarın birini də ovlayıb cibimizə daha çox pul, onun qəlbinə isə özümüzlə bağlı hörmət qatlamırıq?

Lanq:

– Sən nə danışırsan? Heç düşünürsən ki, sənin çuvallara yığdığın canavar balaları an-baan böyüməklə məşquldurlar. Bəlkə sən elə

düşünürsən, onlar sənin xətrinə inkişaflarından geri qalacaqlar?! Bax sənə deyirəm, Binq, çox keçməz gördüyün çuvalların içərisində civildəşən küçüklər bizim üzümüzə mırıldanıb, ətimizi parçalayıb sonra da dağların başına çəkilib mədələrində bədənimizdən qopartdıqları tikələri həzm edə-edə uluyarlar. Sən elə bilmə ki, hər dəfəsində onlar səslərin başlarına atanda başlarından yumruq vurmaqla onları susduracaqsan.

Binq:

– Əşi mən demirəm ki, ovu dörd ay uzadaq, əgər mən burda qalacağımız müddəti boz qurd balalarının böyüyəcəyi müddətə qədər uzatmış olsaydım, deyərdim ki, sən haqlısan, ancaq mən iki gündən danışıram, Lanq!!!

Lanq daha da qəzəblənib yüksəkdən bağıraraq:

– Bəsdir, bəsdir, bəsdir, mundar insan! O qədər mundarsan ki, sənin sayəndə özümün də necə mundar insan olduğumu gördüm! Sən məni dinləyəcəksən! (Lanq özünü ələ alıb astadan sözünə davam etməyə başladı). Qaldı o biri tay canavara, yaxud da sənin dediyin kimi desəm Boz Qurda, bax o ikimizin də əcəli olacaq. Nə məlumdur ki, bizim ölümünə səbəb olduğumuz yerdə yatan canavar sənin gözləmək istədiyin

canavarın dişisi, çuvaldakı küçüklər də onun balaları deyil? Hə, yadıma düşmüşkən, qoy bunu da deyim – özünü axmaqlığa qoyma, yerdə yatan canavar leşi get-gedə çürüməyə, iylənməyə başlayacaq. İki günə canavarın o biri tayını yaxalamaq isə sadəcə axmaqlıqdır. Sən bunlar haqqında üç dörd şey bilirsənsə, mən səndən də artığını bilirəm. Qoy bəzilərini sadalayım ki, onda bəlkə nəfsin qalxdığı yerinə qaxıla!!

Mən bundan sonra desəm "ölümdən qorxuram" yalan demiş olaram. Bu günə kimi var idi ölümdən qorxum, ancaq artıq yoxdur. Səbəbini soruşmağa belə tənəzül etmə. Sənə gələndə: - yerinə olsaydım, indidən Tanrıya dua edərdim ki, bu canavarın erkəyi biz onu ovlamamışdan öncə məhv olmuş.

Binq Lanqın sözünü tamamlamağa imkan vermədi:

– Əşi, sən lap özünü axmaq yerinə qoymusan. Axı hardan bilirsən, ovladığımız canavar dişidi, yoxsa erkək?

Lanq:

– Axmağın yekəsi sənsən. Çox maymaq adamimişsən, Binq! Elə bil canavarın leşini boynuna dolayıb yarım saatdır çiynində daşıyan mən deyiləm! Əlbətdə mən onun cinsiyyətinə

baxmağı ağıl edə bilmişəm. Nə isə çox uzatmayıb qayıdıram bayaq danışdığım söhbətə. – Lanq gözlərini bərəldərək astadan, – Doğru deyirəm, Binq, Tanrıya dua et. Yox əgər deyirsənsə mən Tanrını bu cür şeylərnən narahat etmərəm, onda keç ikinci çıxış yoluna. Tez leşi və torbaları götürüb maşına oturaraq, əziz giran, dırnaq arası dostun Ken-Zhinin malikanəsinə gedib bunları təhvil verib, nəfsini doyduracaq pulunu da götürüb Nepaldan cəhənnəm olaq. Mənə nə Ken-Zhinin, nə də sənin pulun gərək deyil.

Binq söhbətin təsirinə düşmüş vəziyyətdə dedi:

– Sən Boz Qurdlar haqqında bildiklərinin hamısını danışmadın axı.

Lanq başını bulayıb dilləndi:

– Səndə heç ariflikdən əsər yoxuymuş, Binq! Başa düş, doxsan doqquz faiz öldürdüyün dişi canavarın erkəyi, yaxaladığın balaların isə ataları var. Canavarların erkəkləri dişilərinə ömürlərinin axırlarına kimi sadiq qalırlar. Onlar üçün dişiləri əvəz olunmazdır.

Sən məni anlamalısan, bizim tək çıxış yolumuz var, o da axıtdığımız qanın buxarlandığı hərarətli zonadan uzaq qaçmağımızdır. Yetərincə pul qazanmısan, Binq! İnan mənə, öz payıma

düşən pulu da sənə bağışlayıram. Xahiş edirəm gedək, Binq.

Binq Lanqın danışığındakı acizliyi hiss edib sözə başladı:

– Bəs nə oldu, Lanq, ölümdən qəti qorxun yoxuydu? – Sağ əlində yumruq tutub onun sinəsinə vuraraq. – Sənə söz deyim, Lanq. Əslində sən çox qorxaq adamsan. Düzdür işin başında mən də qorxurdum, daha doğrusu desəm ehtiyat etməyə çalışırdım. İndi isə heç də sənin düşündüyün kimi bəraətsiz hiss və qorxu içərisində deyiləm, nə yalan deyim, hətta bu iş mənim özümə qarşı inamıma, gücümə güc qatdı. Hələ bir düşün; mən Binqi, Yulində canavar ovcusu adı ilə tanıyacaqlar. Şübhəsiz ovla bağlı hər bir plan sənin üstün zəkanın məhsuludur, amma nə olsun sən böyük cəsarətlə öhdəsindən gəldiyin işin sonundan qorxursan. Sən qorxaqsan Lanq qorxaq! Lakin qorxaq olsan da, dovşan ürəkli biri olsan da burada mənimlə sonacan qalıb mübarizə aparmağa məhkumsan. – Sözünü bitirdikdən sonra arxasın Lanqa çevirib addımlamağa başlıyar başlamaz gülərək geriyə dönüb kinayə ilə. – Sən qadın ürəkli qorxaqsan, belindəki donqar qoz qədər yekəbaş, sənə çörək verən adamı qorxun üzündən tək qoya biləcək

qədər naxələf insansan. Ha-ha-ha-ha, ancaq mən ürəkli kişiyəm.

Arxasını yenidən Lanqa çevirib qarşısında ölü vəziyyətdə yerə sərilmiş Dişi Boza tərəf qaçıb, onun cansız bədəninə var gücü ilə təpik zərbəsi endirərək gözlərini Lanqın gözlərinə zilləyib:

– Qorxaqsan, qorxaqsan, qorxaqsan, qorxaqsan, – deyərək, dalbadal Dişi Bozun yenik düşmüş ölü vucuduna təpik zərbələri endirdi. Lanqın ondan geri dönməyi acizliklə xahiş etməsi, bir anlığa Binqin özünü ürəkli kişi hiss etməsinə səbəb oldu, belə bir cümlə isə həddindən ziyadə gülməli səslənir, çünki burada, Terrai meşəliyində Lanqsız Binqin qorxaq uşaqdan heç də böyük bir fərqi yoxdur. Lakin hər şeyin üzərinə hamıdan birinci ayağını basmaq, qarşısındakı insanın müxtəlif cür ruh halından istifadə edə bilərək onu utanmadan borclu çıxarmaq Binqin bütün mundarlıqlarının əksi idi.

X

Gecənin zülmət qaranlığında xarici ayrıca, daxili ayrıca ulayan bir cüt göz parıldayır. Dərin məna əks olunub tənha canavar baxışlarında.

Yay küləyi gecənin boynundan boylanaraq ətrafı üfürür. Küləyin hər üfürüşündə tərpənən ağac budaqlarında, meşə torpağını yerə sürütlənərək cızan yarpaq səslərində Bozun yalquzaqlığı bəzənir. Daha onun gecələri, səhərləri səbəbsizdir, o, daha dişisi və balalarını qorumaq üçün deyil, onların həsrətindən yanıb külə dönəcək qəlbinin hələ qaysaqlamağa başlamamış yaralarını qurutmaq səbəbi ilə oyaq qalacaqdı. Qəlbiylə bərabər ruhu da xəstələnəcəkdi. Bu xəstəliyin ilk bəlirtiləri isə indidən baş qaldırmağa başlamışdı. Saatlar keçir, axşam düşürdü. Onun həsrətlə süslənmiş vücudu, üzərisi bol tikanla əhatələnmiş zorakı tənhalığı əllərinə götürərək çoxdan bağrına basıb.

İki gün keçir. Tənha canavar məkanını; yəni ailəsinə və özünə qurmuş olduğu lağımı, onun ətrafını tərk edib. Boz daha orada yaşamır, elə anlar olur ki, gün ərzində bu əraziyə iki dəfə gəlir, dayanmadan ətrafı, lağımın içərisini qoxlayıb sonra da gedir. Bəlkə də dişisinin, balalarının dönəcəyinə ümüd etdiyindən buraya baş çəkirdi. Lağımın içərisini, onun ətrafını qoxlamağı isə dişisindən və körpələrindən ötrü darıxmağının danılmaz göstəricisidi, desək yanılmarıq.

Bütün yaşadıqlarına rəğmən ailəsinin hara getdiyini, dişisiylə bərabər yetim qalmış ciyərparalarının harada olduqlarını təyin etməkdən əl çəkmirdi. Neçə gündür, gecə boyu yuxu görməyən yorğun gözlərini addımını atdığı hər nöqtəyə qandallayaraq böyük diqqətlə axtarış edir.

XI

Meşənin çıxışına yaxın ərazidə çadır qurulub. Dişi Bozun ölü vücudu kəndirlə ayaqlarından düyümlənmiş vəziyyətdə çadırın önündəki fıstıq ağacının qalın budaqlarından başı aşağı bar vermiş meyvə kimi sallanmaqdadır. Balaları isə kəndirlə ayaqlarından bir-birinə sıx şəkildə bağlanıblar. Beş addım irəli ayaq atacaq vəziyyətdə deyillər desək yanılmarıq. Binqlə Lanqın ovu ikinci günün gecəsindən üçüncü günün gecəsinə vüsət almağa başlayıb. Çadırın önündə qalanmış ocağa yaxın əyləşən Binq yol üçün onlara verilmiş içi dana əti ilə dolu konservinin dibini barmaqlarıyla sivirib ağzını marçıldatmaqla məşquldur. Ondan aralıda dayanan Lanq isə payına düşən üç ədəd konservinin ağzını açaraq yerə tökərək məhv etdiyi ana canavarın

balalarını yemləməklə məşğuldur. Çox qəribə səslənir elə deyilmi? Lanq öldürdüyü heyvanın balalarını yemləməklə bəsləyir!! Nə qədər qəribə səslənsə də, ancaq bu belə idi. Yola çıxdığı canavar ovu onun daxili aləmənin kirini-pasını elə yuyub təmizləmişdi ki, kənardan baxdıqda ancaq göz qamaşdıran insan parıltısının ətrafı işiqlandırdığının şahidi olursan. Doğru deyiblər "hər şər işdə bir xeyir var, lakin qazanılan bu xeyir heyvan həyatının fəlakəti bahasına əldə edildi. Canavar balalarından yalnız biri Lanqın onlara bəxş etdiyi azuqədən dadmır. Bu körpə anasını lağımın ağzından kolluğa, kolluqdan tələyə, tələdən isə ölümə yola qədər izləyən körpədir.

İndi bilirəm, bəzilәriniz bu cür hiss və duyğunun kiçik canavar balasının beynində dolaşmasını məcaz sayırsınız, bəlkə də saymırsız, nə bilim!!

Körpənin daxilindəki əyilməzlik Lanqı utandırırdı. Yeməyi yeməsi üçün Lanq onun başına sığal çəkirdi. Lanq onun başını tumarladıqca balaca canavar dişləri arasından mırıldanmağa başlayırdı. Lanq tez üzünü Binqə tərəf çevirib:

– Gözün aydın, iki gün təzə keçib küçük-

lərdən biri artıq adama diş qıcayır. Mən sənə demişdim!! Dediyin müddət başa çatdı. Sabah qayıdaq, bəsdir daha!

Binq yeyib, doyub boşaltmış olduğu konservini yerdən götürüb dedi:

– Aralı dur, – içi boş konservi qutusunu canavar balalarının düz üstünə fırıldadır, – Bax, belə. Qələt edirlər, qorxma sən. Hər şey öz nəzarətim altındadır. Sabaha kimi də gözləyək, heç nə əldə etməsək, yola çıxarıq.

Lanq ayağa qalxıb Binqin sözünə cavab vermək istədiyi an Binqin oturduğu istiqamətdən sağ tərəfdə dayanan vəhşi ölümün baxışlarıyla üz-üzə gəldi. Ayaqlarını bir-birindən aralı qoymuş Boz, boynunu aşağı əymiş şəkildə hündur ağac budağında kəndirə bağlanaraq başı aşağı sallanan dişi Bozunu izləyirdi. Lanqın qarşılaşdığı mənzərənin adı sondur. Binq Lanqın onun sağ tərəfinə baxıb simasının domuş şəkil almasına biganə qalmayaraq üzünü həmin istiqamətə çevirdi. Qarşılaşdığı mənzərə onu neçə gündür qucağında yelləndiyi nəfs yatağından yerə itələdi. O, əlini silaha atmaq istəsə də, çox təəssüf ki, silah çadırın içərisindədir. Binqin çadırın içərisinə girib, silahı götürərək sonra

bayıra çıxıb Boza atəş açması kimi bir şansı yoxdur. Boz gah ağacdan sallaq qalmış dişisinə, gah da kəndirlə bir-birilərinə ayaqlarından sıx bağlanmış körpələrinə həsrətlə baxırdı. Binq üzün Lanqa tutub ucuz acizlikə mızıldandı:

– Lanq, yalvarıram kömək et. Sənə yalvarıram, Lanq!!!

Lanq bərəlmiş gözlərini Bozun gözlərindən ayırmadan pıçıldayır:

– Onun baxışlarında böyük haqq görürəm, yenilməz haqq!! Sən də, mən də onun timsalında bütün heyvanların haqqıyıq. Sənin çıxış yolu axtardığın yollar onun gözlərində od tutub yanır, o yanğını alovlandıran səbəb isə sən və mənəm, gecdir demək istəyirəm, Binq!!!

Binq yüksəkdən hönkürtü çəkib ağlayaraq, canlı aləmin fərdi olan, indiyədək gülərək soyuqqanlılıqla məhv etdiyi, lüzumsuz saydığı heyvanlardan birinə bu sözü deyir:

– Nə olar, bağışla məni, əfv et məni, səhv etdim!!!

Boz yaydan atılan ox kimi hədəfə doğru yönəlir.

XII

Bozun iti dişləri arasında çeynənən Binqin sifəti tanınmaz hala düşdü. Lanqa gəldikdə isə onun da boynu Bozun dişləri arasında nazildi. Binqlə Lanqın leşi vəhşi quşlara, meşə heyvanlarına yem oldu. Boz onların leşindən bir tikə də dadmadı. Balalarını bağlanmış olduqları kəndirdən, həmin kəndiri dişləri arasında parçalayaraq xilas etdi.

Boz ağacdan sallaq qalmış dişisinin ölü vücudunu hündürdən yerə sala bilmədi. O gecələr, səhərlər usanmadan kəndirdən asılı qalan dişisinin cansız cisminə baxıb ulayırdı. Balalarına gəldikdə isə hərəsi ayrı-ayrılıqda başqa məkanları özlərinə yuva edərək Bozu tərk etdilər.

XIII

Yeddi ay ötdü. Himalayların qarlı boranlı qış günləri adətini yenə də sürdürməklə məşquldur. Budur ətrafı güclü nəfəsiynən alt-üst edən boran yeddi aydır hündür budaqdan sallaq qalan Dişi Bozun qurumuş vücüdunu, nəhayət ki, onun ölüsünə belə həsəd aparan erkəyinin

önünə saldı.

Boz dişisinin qurumuş sümüklərini qoxlayaraq ona qarşı duyduğu əbədi, sadiq məhəbbəti bağrına sıxıb bu cəsədin yanında bir daha gözlərini açmamaq şərti ilə dünyaya sonuncu kərəm gözlərini qırpdı.

Bahəddin Salman

«Canlı qətli» (vəhşət)

Bakı, «MBM», 2015, 108 səh.

Naşir: Afər Fəttahova
Texniki redaktorlar: Ülvi Arif, Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Zərifə Bağırova, Tərlan Quliyeva

Yığılmağa verilib: 05.06.2015
Çapa imzalanıb: 10.08.2015
Kağız formatı: 60/84
Tiraj 300, şərti çap vərəqi 6,75
"MBM" nəşriyyatının mətbəəsində
çap olunmuşdur
Bakı, Mətbuat pr., 529
Tel.: (99412) 539-75-06

Azf-285995

Bahəddin Bahadur oğlu Salma
17 noyabr 1988-ci ildə Bakı şə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatr rejissorluğu fakültəsini bitirmişdir. Universitetdə oxuyarkən bədii yaradıcılıqla məşğul olur.

«Canlı qətli» müəllifin oxucularla ilk görüşüdür.

Yazıb yaratmamaq məni cılızlaşdırar. Elə bu səbəbdən də yaradıcılığımın ən yüksək zirvəsinə qalxmaq istəyim məni ikinci əsərimi ağ vərəqlər üzərinə həkk etməyə sövq etdi. Yaratmış olduğum "Canlı qətli" ikinci adı isə "Vəhşət" adlanan əsərimdə bəşəriyyətə qarşı duyduğum bütün hislərimi tam anlamı ilə qələmə aldığıma inanıram.Əsərdə mənfi obrazların Çin xalq respublikasının vətəndaşları kimi təsvir olunmasına isə yetərli qədər əsaslı səbəblərim var. Çöl itlərinin ətini qida kimi istifadə etmək məqsədi ilə itləri məhv etmək üçün Çin xalq Respublikasının Yulin şəhərində hər il keçirilmiş olan festival məncə bu səbəbimin, hətta əsərimin ərsəyə gəlməsinə ən böyük səbəbdir.

Əminəm ki bundan sonrasında da ağ vərəqlərim üzərində doğulacaq hər bir əsərim, hər bir şeirim nə vaxtsa arzu etdiyim kamil cəmiyyətin əlləri arasında oxunub, sonra isə kitab rəfinə yerləşdiriləcəkdir.